

*İlqar Niftəliyev*
*Tarix və Etnologiya İnstitutunun elmi işlər üzrə direktor müavini*
*tarix elmləri doktoru, dosent*

# Azərbaycanda sovet hakimiyyətinin qurulması. Azərbaycan SSR 1920-1969-cu illərdə

## *Hakimiyyətin bolşevik modeli*

28 aprel 1920 - ci il hadisələri - Xalq Cümhuriyyətinin süqutu, Azərbaycanın Sovet Rusiyasının XI Qırmızı Ordusu tərəfindən işğal olunması, bolşeviklərin hakimiyyətə gəlməsi, ölkənin tarixində yeni dövrün başlanğıcı oldu. Aprel işğalının ən əsas nəticəsi Azərbaycanın müstəqilliyini itirməsi oldu. Azərbaycanın bolşevikləşdirilməsi Moskvanın "vahid və bölünməz" imperiyanın bərpasına yönəlmiş səylərinin nəticəsi idi. Sovet Rusiyası qoşunlarını Azərbaycana yeritməklə və hakimiyyəti yerli kommunistlərə verməklə hər vasitə sübut etməyə çalışırdı ki, respublikanın müstəqilliyin təminatçısıdır. Bunun üçün 28 aprel 1920-ci ildə Azərbaycan İnqilab Komitəsi əhaliyə müraciətində müstəqil Azərbaycan Sovet Respublikasının yarandığını elan etmişdir. Aprel işğalından sonra ilk vaxtlar ali qanunvericilik və sərəncamverici hakimiyyət Nəriman Nərimanovun başçılıq etdiyi Müvəqqəti İnqilab Komitəsinə məxsus idi. O, eyni zamanda yeni hökumətə - Xalq Komissarları Şurasına (XKŞ) başçılıq edirdi. Azərbaycan SSR-nin ali qanunverici və icraedici hakimiyyət orqanlarına bir qayda olaraq azərbaycanlılar rəhbərlik edirdi. Lakin respublikada real hakimiyyət 1920-ci ilin fevralında yaradılmış Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə (AK(b)P MK) məxsus idi. Dövlət orqanları Mərkəzi partiya aparatının və onun yerli strukturlarının tam nəzarəti altında işləyirdilər. Qanunverici və icra hakimiyyətinin bütün pillələrində dövlət hakimiyyətinin struktur elementinə çevrilən Kommunist partiyasının üzvləri vəzifə tuturdu. Azərbaycan SSR-in ali qanunvericilik və icraedici hakimiyyət orqanları partiya aparatının, onun Mərkəzi Komitəsinin əlavəsinə çevrilmişdilər. Bu orqanlar üzərində partiya aparatının nəzarəti onun üzvlərinin hakimiyyətin müxtəlif qollarında yerləşdirilməsi və kadr məsələlərinin partiyanın Mərkəzi Komitəsinin əlində cəmləşdirilməsi yolu ilə həyata keçirilirdi. Respublikada qanunverici,

sərəncamverici və nəzarət funksiyaları partiya orqanlarına, icra funksiyaları isə dövlətə orqanlarına məxsus olduğu "partiya dövləti" mexanizmi yaradılmışdı. AK(b)P-nın Bakı komitəsi üzvlərinin sayına görə respublikanın ən iri partiya təşkilatı idi və onun üzvləri arasında ruslar və ermənilər üstünlük təşkil edirdilər.

1920-ci ilin may-iyun ayları ərzində Azərbaycan İnqilab Komitəsi dövlət quruculuğu sahəsində Rusiya nümunəsini rəhbər tutaraq bir neçə mühüm qərar qəbul etdi. Belə ki, yerlərdə qəza, nahiyyə və kənd inqilab komitələri, polisin əvəzinə «fəhlə-kəndli» milisi yaradıldı. Azərbaycan İnqilab Komitəsi Xalq Məhkəməsi haqqında dekret qəbul etdi. Məhkəməyə ancaq fəhlə və kəndlilərin nümayəndələri üzv seçilə bilərdilər. Azərbaycanda əksinqilabçılığa, təxribatçılığa qarşı Fövqəladə Komissiya (FK) yaradılmışdı. Keçmiş Cümhuriyyət ordusunun ləğvi məqsədilə Azərbaycan İnqilab Komitəsi ordunun və donanmanın yenidən təşkili haqqında qərar qəbul etdi. Qərara əsasən, Azərbaycan ordusu və donanması əslində Sovet Rusiyası Qırmızı Ordusunun tərkib hissəsi kimi yaradılırdı. Beləliklə, «Müstəqil» Azərbaycan Sovet Respublikası mövcudluğunun ilk dövründən dövlətçiliyin mühüm atributlarının birindən-orduya malik olmaq hüququndan məhrum edilirdi. Respublikada cəmiyyətin təbəqələrə və mülki rütbələrə bölünməsi ləğv edilirdi. Əhalinin bütün üzvləri respublikanın vətəndaşı adlandırılırdı. İlk qanunvericilik sənədlərinin arasında torpaq haqqında qərar xüsusi əhəmiyyət kəsb edirdi. Bütün xan, bəy və kilsə torpaqları müsadirə edilir və təmənnasız olaraq kəndlilərin sərəncamına verilirdi. Sovet Azərbaycanının elan edilməsi Sovet Rusiyası üçün ölkənin sərvətlərinə, ilk növbədə neftinə yiyələnməsi üçün şərait yaratdı. Beləliklə neft sənayesi yenidən milliləşdirildi, Xəzər ticarət donanması, zavodlar, fabriklər və digər sənaye müəssisələri dövlət mülkiyyəti elan edildi.

Sovet rejimi ilk günlərdən respublikada siyasi represiyyalar həyata keçirirdi. AK(b)P-dən başqa bütün siyasi partiyalar az vaxt içərisində qanundan kənarda sayıldılar, onların mətbuat orqanları qadağan edildi. «Musavat», «İttihad», «Əhrar» və başqa partiyalar zəhmətkeşlərin qatı düşməni kimi damğalanır, partiyanın görkəmli liderləri və hətta sıravi üzvləri də təqiblərə məruz qalırdılar. Cümhuriyyətin tanınmış rəhbərlərinin bir hissəsi həbs edilmiş, digərləri isə Vətəni tərk etməyə məcbur olmuşdu. Güllələnənlər arasında tanınmış dövlət xadimləri və hərbiçilər –Süleyman bəy Sulkeviç, İbrahim bəy Usubov, Həbib bəy Səlimov, Murad Qirey Tlexas, tanınmış ziyalılar və hökümət üzvləri Xudadad bəy Rəfibəyov, İsmayıl xan Ziyadxanov, tanınmış pedaqoq və alim Firuddin bəy Köçərli və başqaları vardı. Daşnak terrorçuları 1920-1921-ci illərdə Fətəli Xan Xoyskini və Həsən bəy Ağayevi Tiflisdə, Behbut xan

Cavanşiri isə İstanbulda qətlə yetirdilər. Cümhuriyyətin bir çox görkəmli xadimi (Əlimərdan bəy Topçubaşov, Əkbər ağa Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli, Məhəmməd Məhərrəmov, Mir Yaqub Mehdiyev və b.) Paris konfransında iştirak etdiklərinə görə, vətəndə qalmış həmfikirlərinin faciəli aqibəti onların başına gəlmədi.

Sovet hakimiyyətinin ilk illərində Azərbaycan SSR-də bolşevik terrorunu həyata keçirən əsas təşkilatlar –FK və XI Qırmızı Ordunun Xüsusi şöbəsi idi. Bakıda və qəzalarda siyasi baxımdan cüzi də olsa şübhə doğuran şəxslər həbs olunurdular, onların əmlakları müsadirə olunurdu. «Şübhəli ünsür» anlayışı ilk növbədə buraxılmış partiyaların üzvləri, keçmiş sahibkarlar, bəylər, tacirlər və ümumiyyətlə varlılara, ziyalılara aid edilirdi. Həbslər və çox vaxt sürətlə aparılan istintaq güllələnmə ilə nətilənirdi. Bolşevik hakimiyyətinin yerli şəraitin nəzərə almadan apardığı sərt siyasət böhran yaratdı və yerlərdə partlayışa gətirib çıxartdı. Azərbaycan xalqı bolşevik hakimiyyətinə qarşı müqavimət hərəkatına başladı. 1920-1921-ci illərdə Gəncədə, Qarabağda, Zaqatalada, Şəkidə, Lənkəranda keçmiş Milli Ordunun hissələrinin və yerli əhalinin antisovet çıxışları baş verdi. Bu çıxışlar Qırmızı Ordunun bölmələri və cəza orqanları tərəfindən qəddarcasına yatırılmışdır. Yüzlərlə üsyan iştirakçısı Suzdala, Novqoroda və Rusiyanın digər ucqar yerlərdəki həbs düşərgələrinə sürgünə göndərilmişdilər.

1920-ci illərin əvvəllərində Azərbaycan rəhbərliyində sovet milli siyasətinin aparılmasında yerli xüsusiyyətlərin nəzərə alınması amilləri ilə bağlı bir-birindən az-çox fərqlənən iki xətt özünü büruzə verirdi. Bir qrup kommunistin fikrincə Rusiya ilə bir dövlətdə yaşamaq şəraitində Azərbaycan SSR-nin siyasi və iqtisadi hüquqları nisbətən geniş olmalı, dəyişikliklər həyata keçirilərkən yerli şərait, milli adət-ənənələr, din və dil amilləri tam şəkildə nəzərə alınmalı, azərbaycanlılardan fəhlə kadrların yetişdirilməsi və respublika partiya təşkilatında, ilk növbədə onun Bakı Komitəsində azərbaycanlıların sayının artması məqsədi ilə şəhərlə kənd arasında əlaqənin güclənməsi, partiya-dövlət aparatında, kargüzarlıqda Azərbaycan dilinin istifadə dairəsinin genişlənməsi təmin edilməli idi. Bu cür düşünən yerli kommunistlərə Mərkəzi bolşevik hakimiyyəti milli-sapınçılar (Moskvanın sərt mərkəzçilik siyasətinə qarşı çıxan və milli maraqları üstün tutan yerli bolşeviklərə milli sapınçı adı verirdilər) damğası vurmuşdu. Bu qrupun ən görkəmli nümayəndəsi N.Nərimanov idi.

Digər qrupu isə əsasən Mərkəzi Sovet rəhbərliyi tərəfindən Azərbaycana təyin olunmuş rəhbər kadrlar təşkil edirdi. Onlar yerli adətləri, milli və dini xüsusiyyətləri, xalqın psixologiyasını nəzərə almadan, bolşevik siyasətini Rusiyada olduğu kimi həyata keçirməyə çalışırdılar. Daxili siyasətdə onlar sinfi

düşmənlərə qarşı amansız mübarizəni, Rusiyada təcrübədən keçmiş Hərbi kommunizm siyasətini tətbiq edilməsini yeganə doğru yol hesab edirdilər. Onlar respublikanın milliliyini müvəqqəti siyasi güzəşt kimi qəbul edir və onun nəinki faktiki, hətta hüquqi baxımdan da tezliklə Rusiyanın tərkibinə qatılmasını arzulayırdılar. Bu qrupda əsas rolları qeyri-millətlərdən olan kommunistlər oynayırdı. Onların içərisində xüsusi cənfəşanlıq göstərən milliyətcə erməni olan kommunistlər ilk günlərdən Azərbaycanın milli baxımdan simasızlaşdırılması uğrunda mübarizənin ən fəal iştirakçıları kimi çıxış edirdilər. Antimilli mövqedə duran kommunistlər, əsasən AK (b) P-nin Bakı komitəsinin ətrafında birləşmişdilər. Hansı xəttin qalib gələcəyi xeyli dərəcədə Moskvanın mövqeyindən asılı idi. Onun Qafqazdakı Qriqori Orconikidze kimi nümayəndələri respublikanın siyasi həyatına müdaxilə edir, rəhbər orqanların fəaliyyətinə həlledici təsir göstərirdilər.

1929-cu ilə qədər Azərbaycan Kommunist partiyasının katibləri əslində partiya aparatına rəhbərlik edirdilər. Onların sırasında qeyri-millətlərin nümayəndələri (Viktor Naneyşvili, Yelena Stasova, Vladimir Dumbaze, Qriqori Kaminski, Sergey Kirov, Levon Mirzoyan) üstünlük təşkil edirdi. 1929-cu ildə Moskva ilk dəfə birinci katib vəzifəsini təsis etdi. 1933-ci ilə qədər bu vəzifəyə yenə də Mərkəzin emissarları (Nikolay Gikalo,Vladimir Polonski, Ruben Rubenov) təyin edildi. Tez-tez dəyişən partiya rəhbərliyi, ard-arası kəsilməyən mübarizələr, intriqalar respublikanın iqtisadi və siyasi həyatına agır təsir göstərirdi. Ölkədə həyata keçirilən irimiqyaslı iqtisadi islahatlar şəraitində Kremlə Azərbaycanda bu intriqalara və mübarizəyə son qoya biləcək güclü kadr lazım idi. Mir Cəfər Bağırovun 1933-ci ilin sonunda AK(b) P birinci katibi vəzifəsinə təyin edilməsi heç də təsadüfi deyildi. Zaman göstərdi ki Bağırov partiya təşkilatında onu parçalayan prinsipsiz mübarizələrə, şəxsi intriqalara son qoya bildi və bütün hakimiyyəti əlində cəmləşdirərək, 20 il Azərbaycan partiya təşkilatına rəhbərlik etdi.

Bolşeviklər öz hakimiyyətlərinə hüquqi əsas vermək üçün 1921-ci ildə Azərbaycan SSR-in ilk Konstitusiyasını qəbul etdilər və hakimiyyət strukturunda bəzi dəyişikliklər etdilər. Müvəqqəti İnqilab Komitəsinin əvəzinə Mərkəzi İcraiyyə Komitəsi (MİK) yaradıldı. 1937-ci ildə yeni Konstitusiya qəbul olunduqdan sonra MİK-ni birpalatalı Ali Sovet əvəz etdi. Hakimiyyət strukturunun bu konfiqurasiyası Sovet Azərbaycanın sonrakı dövründə dəyişikliyə məruz qalmadı. 1937-ci ildən sonra respublikanın titul etnosu azərbaycanlılar adlandırıldı. Bu düzəliş artıq formalaşmış Azərbaycan milləti anlayışını özündə tam əks etdirirdi.

## *“Müstəqil Sovet Azərbaycanı” şüarının iflası*

Şimali Azərbaycan sovetləşdirildikdən sonra Moskva tədricən onun formal müstəqilliyinə son qoydu. Bu proses 1920-1922-ci illərdə Sovet Rusiyası ilə üç Cənub Qafqaz respublikaları arasında ikitərəfli və çoxtərəfli müqavilələr yolu ilə həyata keçirildi. 1922-ci ilin dekabrın 10-da Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasında (ZSFSR) birləşdilər. Bu quruma Moskva tərəfindən təşkil edilmiş və bir-başa ona tabe olan Zaqafqaziya diyar partiya komitəsi rəhbərlik edirdi. Əslində, bu qurum çar Rusiyası dövründə Qafqazın idarə olunması üçün yaradılmış canişinlik sisteminə bənzəyirdi. ZSFSR-in yaradılması Cənub Qafqaz respublikalarının suveren hüquqlarını məhdudlaşdırdı, partiya təkhakimiyyətliyi şəraitində onların Moskvadan asılıqlarını artırdı. Bu dövrdə Azərbaycan müstəqil xarici siyasətdən və xarici ticarət əlaqələrindən məhrum oldu.

1922-ci il dekabrın 30-da ZSFSR, RSFSR, Belorusiya və Ukraynanın səlahiyyətli nümayəndə heyətləri SSRİ-nin yaradılması haqqında Bəyannamə və Müqavilə imzaladılar və yeni, çoxmillətli “sovet dövləti” - SSRİ-ni təsis etdilər. “Sovet dövləti” müstəqil sovet respublikaların” könüllü birləşmə” prinsipinə əsaslansa da, əslində təkpartiyalı idarə rejiminə istinad edən “unitar” qurum idi. Hər respublikanın “federasiyadan könüllü çıxması” hüququ olsa da, həqiqətdə bu formal xarakter daşıyırdı. Bu dövlətin yaradılması ilə Azərbaycan SSR-i böyük bolşevik imperiyasının əyalətinə çevrildi. 5 dekabr 1936-cı ildə SSRİ-nin yeni qəbul olunmuş Konstitusiyası ilə ZSFSR ləğv olundu və Cənubi Qafqazın hər üç respublikası bir-başa SSRİ-nin tərkibinə daxil edildi.

## *Qonşu respublikalarla ərazi münaqişələrin tənzimlənməsi*

Ölkənin şimalının Rusiya tərəfindən yenidən işğalı Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını daha da qüvvətləndirdi. Onun Rusiyanın hərtərəfli yardımı ilə Azərbaycan torpaqlarına (Qarabağ, Zəngəzur, Naxçıvan və s. bölgələrə) yiyələnmək siyasəti xeyli fəallaşdı. 1920-ci il noyabrın 9-də Bakıda keçirilən geniştərkibli partiya iclasında Sovet Rusiyasının Millətlər işləri üzrə komissarı İosif Stalin Ermənistan sovetləşdikdən sonra Zəngəzurun və Naxçıvanın ona verilməsini təklifi ilə çıxış etmişdir[1]. Zəngəzurla bağlı təklifin həyata keçməsində 1920-ci il noyabrın 30-da Azərbaycan KP (b) Siyasi Bürosu qərarının böyük rolu oldu. Qərarda bütövlükdə Zəngəzurun Ermənistana

[1] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi (ARPİİİSSA), fond 1, siyahı 1, iş 14, vərəq 19

birləşdirilməsi nəzərdə tutulsa da[2], 1921-ci ilin yayında qəzanın ermənilər üstünlük təşkil etdiyi ancaq qərb hissəsi burada yuva salmış daşnak quldur dəstələrinin Qırmızı Ordu tərəfindən məğlub edildikdən sonra Ermənistana birləşdirildi.

Qarabağın gələcək taleyinin müəyyənləşdirilməsi istiqamətində real addımlar 1920-ci ilin sonunda Ermənistanın sovetləşməsindən sonra atıldı. Bu andan etibarən Ermənistanla Azərbaycan arasında dövlətlərarası ərazi münaqişəsi faktiki olaraq daxili məsələyə çevrilmiş, danışıqlar isə RK (b) P MK Qafqaz Bürosunun göstərişi və nəzarəti ilə aparılırdı. 1920-ci ilin iyun-iyul aylarında RK(b) P MK Qafqaz Bürosunun katibi Q.Orconikidze Moskvaya, V.Leninə, İ.Stalinə, Q.Çiçerinə göndərdiyi teleqramlarda Qarabağ ermənilərinə muxtariyyətin verilməsi təkilifi ilə çıxış edərək, bunun məhz Azərbaycan rəhbərliyinin təşəbbüsü kimi irəli sürülməsinə nail olacağına söz vermişdir. Nəticədə, 1920-ci il noyabrın 30-da Azərbaycanın kommunist rəhbərliyi Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququnun verilməsi haqqında qərar qəbul etdi. Bu qərarın həyata keçməsi 1923-ci ilədək uzandı. Bu müddət ərzində partiya və sovet orqanları məsələni dəfələrlə müzakirə edirdilər və hər dəfə də müxtəlif baxışlar aşkar olur, cürbəcür təkliflər irəli sürülürdü. Yeni yaradılacaq süni muxtariyyətin etnik sərhədlərini müəyyən etmək əngələ çevrilmişdi. Nəhayət, 1923-cü il iyulun 7-də Azərbaycan SSR MİK Qarabağın ermənilər yaşayan dağlıq hissəsində muxtar vilayətin təşkili haqqında dekret verdi. Azərbaycanın Qarabağ bölgəsində süni erməni muxtariyyətinin yaradılması bu ərazinin parçalanmasına, Şuşa və Xankəndi kimi onlarla Azərbaycanın tarixi torpaqlarının yeni yaradılmış muxtar qurumun tərkibinə verilməsi ilə nəticələndi. Zəngəzurun bir hissəsinin Ermənistana verilməsində və ermənilərə Qarabağın dağlın hissəsində süni muxtariyyətin yaradılmasında Sovet Rusiyasının qüvvətli təzyiqi, onun Qafqaz işlərində əsas rəhbərlərinin İ.Stalin və Q.Orconikidzenin anti-Azərbarbaycan fəaliyyətləri başlıca rol oynadı.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Bakının siyasi təsirindən kənarda qalan yeganə ərazi Naxçıvan bölgəsi idi. Ermənistanın silahlı qüvvələrinin təcavüzkar hərəkətləri nəticəsində Naxçıvan diyarında gərginlik davam edirdi. 1920-ci ilin iyununda Naxçıvana göndərilmiş Türkiyənin qoşun hissələri erməni təcavüzkarlarına qarşı mübarizədə naxçıvanlılara imkan daxilində kömək etməli idi. Müəyyən hərbi hazırlıqdan sonra XI Qırmızı Ordunun hissələri iyulun 28-də Naxçıvana daxil oldular. 1920-ci ilin avqustunda

[2] Yenə orada, fond 1,siyahı 1, iş 24, vərəq 51

Moskvada bağlanmış sovet-türk sazişinə əsasən yeni müqavilə imzalanana qədər hər iki hökumətin hərbi qüvvələrinin Naxçıvanda saxlanılması qərara alındı. Bütün bunlara baxmayaraq, Naxçıvanın statusunun müəyyənləşməsi ərəfəsində Azərbaycanın bu bölgəsində vəziyyət mürəkkəb idi. Bir tərəfdən, Erməninstan silahlı qüvvələrinin təcavüzü nəticəsində gərginliyin davam etməsi, digər tərəfdən isə, Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında gedən pərdəarxası oyunlar Naxçıvanın Azərbaycan SSR tərkibində qalması məsələsinin həllini uzadırdı. Azərbaycan rəhbərliyinin Moskvanın diktəsinə tabe olduğu şəraitdə Rusiya-Ermənistan sövdələşməsinə qarşı mübarizədə Naxçıvan əhalisinin güvəndiyi yeganə qüvvə bölgədə yerləşən türk qoşunları idi. Naxçıvanın Ermənistana verilməsi haqqında 1920-ci il noyabrın 30-da Azərbaycan KP (b) Siyasi Bürosunun qərarı və 1920-ci il dekabrın 1-də Bakı Sovetinin bəyannaməsi diyarın müsəlman əhalisinin qəti etirazına səbəb oldu. Lakin, Naxçıvanın Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistana verilməsi planı bölgədə türk qoşunlarının yerləşməsi şəraitində əvvəlcədən uğursuzluğa məhkum idi. 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında imzalanmış dostluq müqaviləsi sayəsində erməni fitnələrinə son qoyuldu. Bu müqavilənin üçüncü bəndinə əsasən Naxçıvan vilayəti "Azərbaycanın qəyyumluğu (protektoratı) altında muxtar ərazi olurdu, bir şərtlə ki, Azərbaycan bu qəyyumluğu üçüncü dövlətə güzəştə getməyəcəkdir". Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi statusu RSFSR-in iştirakı ilə, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin 13 oktyabrında Qarsda bağlanmış 20 maddədən ibarət dostluq müqaviləsində təsbit edildi. Hər iki müqavilə müddətsiz idi. Bu müqavilələr bu günə kimi Ermənistan ilə Azərbaycan və Türkiyə arasında dövlət sərhədlərini tənzimləyən yeganə beynəlxalq sənədlərdi. 1924-cü il fevralın 9-da Azərbaycan SSR MİK-in Rəyasət Heyəti Naxçıvan Sovet Sosialist Respublikasının yaradılması haqqında dekret verdi. Beləliklə, Naxçıvan məsələsinin Azərbaycanın xeyrinə həll olunmasında Türkiyənin inkaredilməz rolu oldu. Lakin Zənqəzurun bir hissəsinin itirilməsi nəticəsində Naxçıvan ərazi baxımından Azərbaycanın əsas hissəsindən ayrı salındı. Bu gələcəkdə Azərbaycan SSR ilə Ermənistan SSR arasında yeni ərazi problemlərinin meydana çıxmasının bünövrəsini qoydu.

Ermənistandan fərqli olaraq Azərbaycanın Gürcüstanla olan ərazi mübahisələri qanlı toqquşmalara və irimiqyaslı hərbi əməliyyatlara səbəb olmamışdı. Respublikalar arasında əsas mübahisəli ərazi olan Zaqatala mahalının hansı dövlətə mənsubluğu məsələsi öz qəti həllini yalnız Gürcüstanın sovetləşməsindən sonra tapdı. 1921-ci ildə respublikalar arasında bağlanmış sazişə əsasən Gürcüstan Zaqatala dairəsinə olan bütün iddialarından əl çəkirdi.

Sözügedən münaqişənin həllində bəzi amillər rol oynamışdı. İlk növbədə Zaqatala mahalının əhalisinin mütləq əksəriyyətinin müsəlman olması və qəti şəkildə Azərbaycan tərkibində yaşamaq iradəsini ortaya qoyması, onun Azərbaycan tərkibində qalmasında həlledici rol oynadı.

Ümumiyyətlə, 1920-ci illərdə Azərbaycanın qonşu respublikalarla sərhədlərində və inzibati-ərazi quruluşunda əhəmiyyətli dəyişikliklər baş verdi. 1920-1929-cu illərdə Qərbi Zəngəzurun bütövlükdə, Qazaxın, Şərqi Zəngəzurun və Naxçıvan MSSR-in bəzi torpaqlarının Ermənistan SSR-ə verilməsi nəticəsində Azərbaycan SSR-nin ərazisi təxminən 10 min $km^2$ azalmışdır. 1929-1930-cu illərdə respublika ərazisinin qəzalara və dairələrə bölünməsi rayonlaşma ilə əvəz edildi. Bu ərazi bölgüsü forması sonrakı dövrdə dəyişmədi.

## İqtisadiyyatda inzibati-amirlik sisteminin təşəkkülü və sosial ziddiyyətlər

Sovet hakimiyyətinin ilk günlərindən bolşeviklərin iqtisadi siyasəti ardıcıllıqla fərqlənmirdi. 1920-1921-ci illərdə aparılan Hərbi kommuniz siyasəti çərçivəsində vətəndaşların əmlakının müsadirə edilməsi, ərzaq məhsulları üzərində möhkəm qiymətlərin tətbiqi və ticarət azadlığının qadağan edilməsi əhalinin, ilk növbədə kəndlilərin iqtisadi vəziyyətini xeyli pisləşdirdi. Buna görə, 1921-ci ildən etibarən Yeni iqtisadi siyasət (YİS) çərçivəsində iqtisadiyyata bazar münasibətlərinin bəzi elementləri tətbiq olunmağa başladı. Daxili ticarət azadlığı, icarə sistemi, bank kreditləri, ilk növbədə yüngül və yeyinti sənayesində özəl müəssisələrin yaradılması hüququ verildi. Ağır sənaye və xarici ticarət dövlətin inhisarında qaldı. YİS iqtisadiyyatı əhəmiyyətli dərəcədə canlandırdı, neft sənayesinin yenidən qurulmasına, Azərbaycanın regionlarında yüngül sənaye və tikinti materialları müəssisələrinin açılmasına, kəndlərdə fermer təsərrüfatlarının payının artırılmasına kömək etdi.

Düşmən dövlətlərin əhatəsində olan SSRİ-nin müdafiə qabiliyyətini gücləndirmək üçün ilk növbədə ağır sənayeni inkişaf etdirmək sovet rəhbərliyi qarşısında ən ümdə məsələ kimi dururdu. Sənayenin maddi-texniki bazasını modernləşdirmək üçün isə çoxlu kapital qoyuluşu, xammal, işçi qüvvəsi tələb olunurdu. Xarici kapitaldan məhrum olan, xüsusi kapitalı isə sənayeyə buraxmaqdan ehtiyat edən dövlət ağır sənayeni digər sənaye sahələrindən gələn gəlirlər hesabına və kəndlinin açıq-aşkar talan edilməsi hesabına dirçəltməyə çalışırdı. Bu isə ilk növbədə şəhərin kənd üzərində inzibati nəzarəti, bazar münasibətlərinin ləğv edilməsi, istehsalçıdan iqtisadi sərbəstliyin alınması, kənd

təsərrüfatı vəsaitlərinin sənayeyə axması demək idi. Digər tərəfdən ölkədə və respublikada sənayeləşməni həyata keçirəcək təcrübəli mütəxəssis kadrlar, ixtisaslı fəhlələr az idi.

1926-cı ilin fevralında respublikada sənayeləşdirmə üzrə xüsusi komissiya yaradıldı. Azərbaycanda sənayeləşmə xətti əsasən iki sahəni-neft sənayesi və elektrikləşməni əhatə etdi. İlk növbədə neft sənayesində mühüm naliyyətlər əldə edilmişdir.1928-ci ildə Bakıda yeni Qaraçuxur mədəninin istismarı başlandı, kerosin-benzin zavodu, sulfat turşusu, karbid, yağ zavodu və digər müəssisələr tikildi. 1929-cüu ildə Bakıda ilk krekinq qurğusu yaradıldı.

Sənayeləşmənin ilk illərində Azərbaycanın digər yerlərində də sənaye obyektlərinin tikintisinə başlandı. Bu dövrdə Gəncə Azərbaycanın ikinci sənaye mərkəzinə çevrilirdi. 1927-1928-ci illərdə respublikanın elektrikləşdirilməsi sahəsində mühüm naliyyətlər əldə edildi. Salyan, Karyagin (indiki Füzuli), Nuxa istilik elektrik stansiyalarının inşası başa çatdırıldı. Aşağı Zurnabad, Xankəndi, Zaqatala hidroelektrik stansiyalarının tikintisinə başlandı. 1925 –ci il Ümumittifaq Kommunist bolşevik partiayasının (ÜK(b)P) XIV qurultayında sənayeləşmə xətti irəli sürüldü. Sənayeləşmənin həyata keçirilməsi üçün beşillik inkişaf planları qəbul olunmuşdu. Birinci beşillik ərzində (1928-1932) respublikada 35 yeni sənaye müəssisəsi işə düşdü, yeni sənayə mərkəzləri Gəncə, Xankəndi, Nuxa və s. inkişaf etməyə başladı. Azərbaycan aqrar respublikadan aqrar-sənaye respublikasına çevrildi. Yeni sənaye müəssisələrin tikintisi, köhnə müəssisələrin bərpası hesabına respublikada işsizliyin aradan qaldırılmasında müvəffəqiyyətlər əldə olundu.

1930-cu illərin ortalarında Azərbaycanda kapitalist təsərrüfatı tamamilə ləğv edildi, təsərrüfatda sosialist sisteminin hökmranlığı əldə olundu. İkinci beşillikdə (1933-1937) Lökbatan, Qala, Neftçala və Pirallahı adasında yeni neft rayonlarının inkişafı başlanıldı. Ümumlikdə ikinci beşillikdə 29 iri sənaye müəssisəsi istismara verilmişdi. İkinci beşilliyin sonuna qədər Azərbaycan SSRİ-də (RSFSR və Ukrayna SSR-dən sonra) sənaye məhsullarının və elektrik enerjisinin istehsal səviyyəsinə görə üçüncü yeri tuturdu. 1930 –cu illərin sonunda Azərbaycan SSR-də şəhər əhalisinin xüsusi çəkisi artaraq 36 % təşkil etmiş, Bakı şəhəri isə əhalisinin sayına görə (774,2 min nəfər) İttifaqda beşinci yerə çıxımışdı. 1930-cı illərin ikinci yarısında SSRİ-də yaranmış plan tapşırıqlarını artıqlaması ilə yerinə yetirilməsi hərəkatı Azərbaycanda da geniş vüsət almışdır. Yüksək plan və plandan əlavə göstəricilərə, şişirdilmiş nailiyyətlərə və artırmalara meyil, maddi resursların normadan artıq istifadəsinə səbəb olmuşdu. Müəssisələr plan öhdəliklərinin vaxtında və

artıqlaması  ilə yerinə yetirmək uğrunda sosialist yarışına çıxdığı üçün keyfiyyətsiz məhsulun istehsalı adi hala çevrilmişdi.

1926-cı ildən Azərbaycanda əsası qoyulmuş sənayeləşmə siyasəti şəhər və kəndin inkişaf səviyyəsi arasındakı tarazlığı pozdu. Daxili maliyyə mənbələrinin kəskin çatışmazlığı şəraitində kənd təsərrüfatından əsasən neft sənayesinə və enerji sektorunun inkişafına vəsaitlərin köçürülməsi siyasəti kənd təsərrüfatının geriləməsinə, kənddən şəhərə miqrasiya proseslərinin güclənməsinə gətirib çıxartdı. Nəticədə, şəhərin kənd təsərrüfatı məhsulları ilə təmin edilməsində çətinliklər yarandı, bu da onların qiymətlərinin artmasına və ərzaq qıtlığına səbəb oldu. Bunun qarşısını almaq üçün 1932-ci ildə pasport sisteminin tətbiqi kənd sakinlərinin şəhərə köçməsinə məhdudiyyətlər qoydu. Bu isə kəndin azərbaycanlı əhalisinin sürətli urbanizasiya şəraitində daxili miqrasiya proseslərində iştirakını zəiflətdi. Belə şəraitdə sənayələşmə dövründə şəhərdə işçi qüvvəsinə artan tələbat,  əsasən, Rusiyadan köçürənlərin  hesabına ödənilirdi.  Beləliklə,  fəhlə sinfi əsasən rusların hesabına kəmiyyətcə artmağa başladı. Nəticədə 1933-ci ilin əvvəlinə  Bakının neft sənayesində çalışan fəhlələrin ümumi çəkisinin  58,3% -ni  ruslar  təşkil edirdi.

1920-cə illərin sonlarına doğru dövlətin qolçomaq və ortabab  kəndlilərə tətbiq etdiyi sərt iqtisadi üsullar kənddə məhsuldarlığın azalması və sənayeləşmə xəttinin pozulması təhlükəsini  yaradırdı. 1929 –cu ildə  taxıl böhranının yaranması   ərzaq məhsullarının kartoçka yolu ilə paylanması sisteminə keçilməsinə səbəb oldu. Bunun nəticəsində taxıl ticarəti qadağan edilərək, artıq hissə zorla müsadirə olunurdu. Məhsulun artığını dövlətə təhvil verməkdən imtina edən kəndli təsərrüfatlarına  qarşı cəza tədbirləri görülməyə başlandı.

1929-cı ilin yayında İ.Stalin elliklə kollektivləşmə xəttini elan etdi. Bu islahatın əsl mahiyyəti qolçomaq və ortabab  kəndli təsərrüfatının  məcburi ləğv edilməsi, onların zorla kollektivləşdirilməsi idi.  Kollektivləşdirilmənin sürətinə görə bütün ölkə ərazisi  üç qrupa bölünürdü. Azərbaycan SSR kollektivləşdirilməsi 1932-ci ilin yazında başa çatdırılacağı nəzərdə tutulan üçüncü qrup  rayonlar sırasına daxil olundu. Kollektivləşmə xəttinin qəbul edilməsi ilə Azərbaycan kəndində vəziyyət qısa müddətdə kəskinləşdi. 1930-cu illərin əvvəllərində elliklə kollektivləşmənin həyata keçirildiyi rayonlarada torpağın  icarəyə verilməsi və muzdlu əməkdən istifadə edilməsi haqqında qanun ləğv edildi.

SSRİ-in digər regionları  ilə müqayisədə Azərbaycanda kollektivləşmə xətti çox ləng gedir və daha ağır nəticələr  doğururdu ki, bunun da bir sıra obyektiv və subyektiv səbəbləri var idi. İlk növbədə qeyd etmək lazımdır ki, kollektiv təsərrüfatçılıq Azərbaycan kəndlisinə yad idi. Tarixən tək təsərrüfatçılığın, nisbi

iqtisadi sərbəstliyin mövcud olduğu Azərbaycan kəndində kolxozların təşkili çox böyük çətinliklər doğururdu. Azərbaycanda kollektivləşmə xətti partiyanın dinə, milli adət-ənənələrə qarşı apardığı mübarizə ilə eyni vaxta düşmüşdü. Bir tərəfdən kəndlilərin olan-qalan əmlakının müsadirə edilib kolxozlara qatılması, digər tərəfdən onun dini mərasimlərin keçirilməsinin qarşısı silah gücünə alınması xalqın səbir kasasını doldururdu. Torpağın, iş heyvanın ümumiləşdirilməsi ilə birtəhər barışan Azərbaycan kəndlisi məişət avadanlığının, evinin ümumiləşdirilməsinə heç cür dözə bilmirdi.

Kəndlilərə qarşı həyata keçirilən zorakılıq metodları, vergi siyasətində özbaşınalıq 1930-cu illərin əvvəlində Azərbaycanda kolxoz hərəkatına qarşı mübarizəni gücləndirdi. 1930-cu ildə Azərbaycanın Nuxa-Zaqatala, Naxçıvan, Cəbrayıl, Şəmkir və digər bölgələrində sovet və partiya orqanlarına qarşı silahlı mübarizə başlandı. Bəzi bölgələrdə bu mübarizəyə yerli kommunistlər də qoşulmuşdu. Üsyançılarla hökumətin cəza dəstələri arasında ciddi silahlı toqquşmalar baş vermiş, günahsız qanlar axıdılmışdı. Nəticədə üsyanda fəal iştirak etmiş kəndlilər və kommustlər həbs edilərək güllənməyə məhkum olunmuş, ailə üzvləri isə SSRİ-in ucqar regionlarına sürgün edilmişdilər. Belə ki, ÜK(b)P Siyasi Bürosunun 25 fevral 1930-cu il tarixli qətnaməsi ilə yerli orqanlara 15 mart 1930-cu il tarixinə qədər təcili olaraq Azərbaycandan 500 nəfər qolçomaq müəyyənləşdirilib islah düşərgələrinə göndərilməsi tapşırılmışdır. ÜK(b)P Siyasi Bürosunun 4 may 1932-ci il qərarı ilə Azərbaycan SSR-dən Qazaxıstana 1200 qolçomaq ailəsinin sürgün edilməsi nəzərdə tutulurdu. ÜK(b)P Siyasi Bürosunun "Zaqafqaziya qolçomaqlarının sürgün olunması haqqında" 23 aprel 1933-ci il tarixli qərarı ilə Azərbaycandan 900 qolçomaq ailəsi pambıqçılıq və sərhəd rayonlarından köçürülməsinə icazə verilmişdir ki, bu da Azərbaycandan SSRİ-nin müxtəlif ərazilərinə, o cümlədən Qazaxıstan ərazisinə sürgün olunan əhalinin bir hissəsini əhatə edirdi. ÜK(b)P Siyasi Bürosunun "Azərbaycanda antisovet elementlərin sürgün olunması" haqqında 25 dekabr 1934-cü il tarixli qərarı ilə Azərbaycan KP MK-nin xüsusi xahişinə əsasən Xalq Daxili İşlər Komissarlığına (XDİK) tapşırılır ki, Azərbaycandan 87 qolçomaq antisovet elementləri, iri kapitalist müəssisələrinin keçmiş sahibləri, İttifaqın digər respublikalarından qaçıb gəlmiş qolçomaqlar əmlakları müsadirə olunmaqla inzibati qaydada islah düşərgələrində göndərilirdi[3].

Beləliklə, 1929-cu ildən dövlətin həyata keçirdiyi kollektivləşmə xətti Azərbaycan kəndi üçün faciəli sonluqla bitmişdir. Artıq 1936-cı ilin apreli üçün

[3] Политбюро и крестьянство: высылка, спецпоселение. 1930-1940: в 2 кн. Книга 1/ Отв.ред. Н.Н.Покровский. М., РОССПЭН, 2005,с.119,537,605,659.

respublikada kəndli təsərrüfatının 85,2% kolxozlarda birləşdirildi. Kollektivləşmə səviyyəsi pambıqçılıq rayonlarında daha yüksək idi. Əkinçilik rayonlarında kollektivləşməni sürətləndirmək mümkün olsa da maldarlıq rayonlarında kollektivləşmənin səviyyəsi aşağı olmuşdur.

### *“Böyük terror” və “xalq düşmənləri”*

1930 - cu illərin əvvəllərində kəndlilərin silahlı çıxışlarına qarşı hakimiyyətin sərt cəza tədbirləri 1936-1938-ci illərdə həyata keçirilən kütləvi siyasi repressiyaların müqəddiməsinə çevrilmişdir. 1936-cı il oktyabrın 1-dən 1938-ci il iyulun 1-dək Azərbaycan SSR-də 25222 insan həbs olunmuşdur. Həmin dövr ərzində Sovet İttifaqı üzrə 13356 azərbaycanlı həbs edilmişdir. Onların 9592 nəfəri “antisovet fəaliyyətinə” görə tutulmuşdur[4]. 1 yanvar 1939-cu il tarixinə qədər Azərbaycan SSR-də 20 xalq komissarı və onların müavinləri, Mərkəzi Komitənin 3 şöbə müdiri, 52 rayon partiya komitəsinin katibləri, 34 rayon icra komitəsinin sədrləri, 7 fabrik və mədən direktoru, 66 mühəndis, 88 hərbi qulluqçu, 106 sovet və həmkarlar ittifaqı işçiləri, 8 professor həbs olunmuşdur[5]. Demək olar ki, onların əksəriyyəti güllələnmişdir. Lakin repressiyaların miqyası əhəmiyyətli dərəcədə böyük idi. Repressiya qurbanlarının ailə üzvləri və digər yaxın qohumları da repressiyalara məruz qalaraq ölkənin şimal rayonlarına və Mərkəzi Asiyaya sürgün edilmişdilər. Bunlar nəzərə alınsa, təkcə 1936-1938-ci illərdə repressiya qurbanlarının ümumi sayı 100 minə çatırdı. Repressiyalar sırf Azərbaycan daxili terror kampaniyası deyildi. Bu siyasət Ümumittifaq səviyyəsində həyata keçirilirdi və ayrı-ayrı respublikalarda öz miqyası, xarakteri və qəddarlıq dərəcəsi ilə fərqlənirdi.

### *Mədəni quruculuq: nailiyyətlər və itkilər*

Sosialist mədəniyyəti quruculuğu keçmiş milli ucqarların özünəməxsus şəraitində böyük çətinliklərlə üzləşirdi. Ilk növbədə xalq təhsilini köhnə idarə üsulundan azad etmək, imtiyazlı, dini məktəblərin dayaqlarının ləğvi əsasında yeni məktəb yaratmaq, təhsil sistemini bolşevik prinsipləri zəminində köklü dəyişmək vəzifəsi qarşıda dururdu. 1920-ci il mayın 15-də Azərbaycan Inqilab

---

[4] Трагедия советской деревни. Коллективизация и раскулачивание. 1927—1939: Документы и материалы. В 5 тт. / Т. 5. 1937—1939. Кн. 2. 1938—1939 / Под ред. В.Данилова. М.: «Российская политическая энциклопедия» (РОССПЭН), 2006. С. 161-162.

[5] ARPİİSSA, fond 1, siyahı 22, iş 296, vərəq 66-67.

Komitəsinin vicdan azadlığı haqqında dekretinə görə, Xalq Maarif Komissarlığının tabeliyində olan bütün dövlət məktəblərində dini təlimlərin öyrənilməsi və hər hansı dini mərasim keçirilməsi qadağan olundu. Savadsızlığın ləğvi işini vahid orqanda mərkəzləşdirmək üçün 1923-cü ilin dekabrında XKŞ-nin sədri Q. Musabəyovun başçılığı ilə "Savadsızlıqla mübarizə komitəsi" yaradıldı. 1920-1930-cu illərdə azərbaycanlılar arasında savadsızlığı aradan qaldırmaq məqsədilə onlar ilk növbədə ali və orta pedaqoji təhsil ocaqlarına qəbul olunurdu. Nəticədə 1939-cu ildə bütün respublika əhalisinin savadlılığı 73,8 %, o cümlədən azərbaycanlılar içərisində 65,3 % təşkil edirdi. Azərbaycanda məktəb şəbəkəsi genişlənmişdir. 1940-1941-ci tədris ilində respublikada 3,5 mindən çox ümumtəhsil məktəbi vardı.

Azərbaycanın yeni iqtisadi və mədəni inkişafı müxtəlif sahələrdə yüksəkixtisaslı mütəxəssislər hazırlanmasını şərtləndirirdi. 1920-1930-cu illərdə respublikada neftçi kadrlara kəskin ehtiyac duyulurdu. Yeganə ali texniki təhsil müəssisəsi olan Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) hazırladığı mühəndis kadrların sayı neft sənayesinin yüksək inkişaf sürəti ilə müqayisədə kifayət deyildi. 1930-cu ildə Politexnik İnstitutu Neft İnstitutuna (indiki Azərbaycan Neft Akademiyası) çevrildi. 1929-cu ildə isə Politexnik İnstitutunun kənd təsərrüfatı fakültəsi bazasıda Gəncədə Kənd Təsərrüfatı İnstitutu (indiki Azərbaycan Kənd Təsərrüfatı Akademiyası) təşkil olundu. 1930-cu ildə Azərbaycan Dövlət Universiteti (ADU) də əsaslı yenidənqurmaya məruz qaldı. ADU-nun tərkibindən bir neçə müstəqil institut ayrıldı. Tibb fakültəsi Azərbaycan Tibb İnstitutuna (indiki Azərbaycan Dövlət Tibb Universiteti), pedaqoji fakültə isə Azərbaycan Pedaqoji İnstitutuna (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) çevrildi. Universitetin hüquq fakültəsi əsasında Sovet Quruculuğu və Hüquq İnstitutu, iqtisad fakültəsi bazasında isə Kooperativ-Ticarət İnstitutu təşkil olundu. 1940-1941-ci tədris ilində Azərbaycanda 16 ali məktəb fəaliyyət göstərirdi. Ali təhsilli mütəxəssislər içərisində azərbaycanlılar 39,6 % təşkil edirdi. Mütəxəssislərin tərkibində humanitar sahədə işləyən kadrlar (müəllim, jurnalistlər) üstünlük təşkil edirdilər. Bu illərdə ali və orta ixtisas təhsilinin inkişafı sahəsində görülən işlər müharibədən sonrakı dövrdə yüksəkixtisaslı yeni ziyalı kadrların daha intensiv surətdə hazırlanması üçün əsas yaratdı.

Təhsil sisteminin inkişafı yolunda mühüm nailiyyətlərdən biri də tədrisdə Azərbaycan (türk) dilindən geniş istifadə edilməsi idi. Sovet hakimiyyətinin ilk günlərindən bu sahədə geniş tədbirlər həyata keçirilirdi: ən müxtəlif profilli müəllimlər, xüsusi terminoloji lüğətlər hazırlanırdı, Azərbaycan dilində tədris edən məktəblərin sayı artır, daha çox tədris və xüsusi ədəbiyyat nəşr olunurdu.

Respublika rəhbərliyi əhalinin çoxmillətli tərkibini nəzərə alaraq, dəfələrlə qeyri-azərbaycanlıların Azərbaycan dilinə yiyələnmələrinin vacibliyi barədə qərarlar qəbul etmişdir. Lakin bütün səylərə baxmayaraq, hələ uzun illər yüksək vəzifələrdə irəliləyişə və sosial statusun artmasına zəruri olan rus dili respublikada, xüsusən də Bakıda əsas millətlərarası ünsiyyət dili olaraq qaldı. Bu şəraitdə Azərbaycan dili, əsasən, Bakıdan kənarda geniş istifadə olunurdu. Buna əhalinin milli tərkibi də təsir edirdi. 1939-cu ildə Azərbaycan SSR-də keçirilmiş əhalinin siyahıya alınmasına görə azərbaycanlılar respublika əhalisinin 58,4 % təşkil edirdilər[6].

1922-ci ildə Azərbaycan əlifbasını latın yazı qrafikasına keçirmək üçün Yeni Türk Əlifbası Komitəsi yaradıldı. Onun sədri Səmədağa Ağamalıoğlu seçildi. Əlifba məsələsini müzakirə etmək üçün türk xalqlarının qurultayını çağırmaq zərurəti meydana çıxmışdır.

1926-cı ilin fevralında Bakıda açılmış Birinci ÜmumIttifaq Türkoloji qurultay türk xalqlarının mədəni həyatında mühüm rol oynamış böyük hadisə oldu. 1929-cu il yanvarın 1-dən Azərbaycan SSR-in yeni əlifbaya keçməsi rəsmən elan olundu. Ancaq 1930-cu illərin əvvəllərində diqqətlə hazırlanmış və bir çox cəhətdən təkmilləşdirilərək vahid şəklə salınmış latın əlifbası təəssüf ki, uzun müddət davam etmədi. İttifaq rəhbərliyi unitar sosialist dövlətində müxtəlif millətlər arasında əməkdaşlığın möhkəmlənməsi və inkişafında hakim rus dili və əlifbasının mühüm ünsiyyət vasitəsi olmasını obyektiv və tam inkar edilməz fakt hesab edirdi. Hətta 1938-ci ilin martında qeyri-rus məktəblərində rus dilini icbari qaydada öyrənmək haqqında xüsusi qərar qəbul edilmişdi. Azərbaycan SSR 1940-cı il yanvarın 1-dən latın əlifbasının kirillə əvəz edilməsi rus dilinin fəaliyyət dairəsini daha da genişləndirdi. Beləliklə, tarixən qısa bir zamanda Azərbaycanda iki dəfə əlifba dəyişildi. Sonrakı illərdə Azərbaycan yazısı kiril qrafıkası məcrasında inkişaf etdi. Əlifba islahatları gənc nəslin etnik və mənəvi köklərinə bağlılıq ruhunda tərbiyəsinə mənfi təsir göstərmişdir. Azərbaycandan fərqli olaraq Ermənistan və Gürcüstanda əlifba islahatı aparılmamışdır. Bu respublikalarda əhalinin tərkibində titul millətin xüsusi çəkisinin və savadlıq səviyyəsinin yüksək olması, müxtəlif sahələr üzrə çoxlu sayda, o cümlədən rus dilini bilən, peşəkar milli kadrların mövcudluğu, ana dilində ədəbiyyatın, dövrü mətbuatın geniş yayılması əlifba islahatının keçirilməsini zəruri etmirdi.[7]

Azərbaycanda sovet hakimiyyəti illərində İslam dini çətin tarixi yol keçmişdir. Bu cəhətdən 1920-1930-cu illər xüsusi yer tutur. Artıq 1920-ci illərin

---

[6] Всесоюзная перепись населения 1939 года: Основные итоги. М., 1992, с. 200.
[7] Там же, сс. 200-202, 205-207,212-213

əvvəllərində mətbuatda, partiya dairələrində müxtəlif dini ayinlər, bayramlar, Məhərrəmlik günlərində müsəlmanların matəm mərasimi və onların qadağan edilməsi haqqında məsələlər müzakirə edilirdi. 1924-cü ildə Bakıda yaradılan "Allahsızlar" cəmiyyəti bu sahədə xüsusi canfəşanlıq edirdi. 1920-ci illərin sonları və 1930-cu illərin əvvəllərində SSRİ-nin hər yerində olduğu kimi, Azərbaycanda da məscid, kilsə və sinaqoqların kütləvi bağlanmasına, din xadimlərinin təqib olunmasına başlandı. Quran zərərli bir kitab kimi qadağan edildi. Azərbaycan qəzalarında dağıdılmayan, ya da anbara, kluba, kitabxanaya çevrilməyən məscid qalmadı. Şərqdə məşhur olan Bibiheybət məscidinin taleyi də acınacaqlı oldu. Bu islam ocağı və Şərq memarlığının incilərindən biri 1936-cı ildə partladıldı. Ateizmin təbliği, dini bayramların keçirilməsinə qoyulan qadağalar, məscidlərin dağıdılması, ruhanilərin təqib edilməsi azərbaycanlıların əsrlər boyu təşəkkül tapmış mənəvi dəyərlərinə güclü zərbə vurmuşdur.

Azərbaycanda ilk dəfə olaraq dövlət səviyyəsində elmi-tədqiqat özəkləri və institutları şəbəkəsinin yaradılması işinə başlandı. 1923-cü ildə Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət və Azərbaycan Arxeologiya Komitəsi təşkil olundu. Xocalı-Gədəbəy, Yaloylutəpə, Qızılvəng kimi arxeoloji mədəniyyətlər aşkar edildi. 1929-cu ildə isə Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyətin əsasında Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (Az.DETİ) təşkil edildi. 1932-ci ildə Azərbaycan MİK-in qərarı ilə Azərbaycan DETİ-nin bazasında SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan şöbəsi təşkil edilməsi ilə elmi tədqiqatların miqyas və perspektivləri xeyli genişləndi. 1935-ci ildə şöbənin bazasında SSRİ EA-nın Azərbaycan filialı təşkil edildi. Əslində, Azərbaycan elmi, onun idarəetmə orqanları dövlət strukturunun tərkib hissəsinə çevrilərək, digər sahələrdə olduğu kimi, partiya rəhbərliyinin tam nəzarəti altında, onun tərəfindən göndərilən göstərişlər əsasında fəaliyyətini qururdu.

Sovet hakimiyyəti, kommunist partiyası kütlələrin bədii sərvətlərə yiyələnməsini özlərinin ideoloji fəaliyyətlərində məqsədyönlü başlıca vəzifə kimi elan etmişdilər. Bununla belə, Azərbaycan mədəniyyətinin görkəmli, dəyanətli xadimləri mürəkkəb ictimai-siyasi şəraitdə milli irsi qoruyub saxlamağa çalışır, maarifçilik, humanizm, tərəqqi ideyalarını təbliğ edərək, gerilik və mövhumatçılığa qarşı mübarizə aparırdılar. 1920-1930-cu illərdə Azərbaycan dramaturgiyasının yaranması və formalaşmasında Cəfər Cabbarlının böyük rolu olmuşdu. Bu dövrdə Cabbarlı "Aydın", "Oktay Eloğlu", "Od gəlini", "1905-ci ildə" adlı pyeslərində Azərbaycan xalqının tarixi keçmişini, onun azadlıq və müstəqillik uğrunda mübarizəsini dərindən dərk etməyə cəhd etmiş, Azərbaycan dramaturgiyasının gələcək inkişaf istiqamətini müəyyən etmişdir.

Görkəmli bədii söz ustası Hüseyn Cavid “Peyğəmbər”, “Topal Teymur”, “Səyavuş” pyeslərində oxucularını uzaq keçmişə aparırdı, feodal özbaşınalığını, zorakılığı, nadanlığı, mövhumatçılığı, zülmkar, vicdansız, istismarçı adamları tənqid edirdi. Sovet hakimiyyəti Azərbaycan ədəbiyyatını bolşevik ehkamlarının xidmətinə tabe etmək, yazıçıların yaradıcılığını nəzarətdə saxlamaq və onu istiqamətləndirmək üçün 1925-ci ildə “Qızıl qələmlər”, 1928-ci ildə “Azərbaycan proletar yazıçılar cəmiyyəti” və nəhayət 1932-ci ildə Yazıçılar İttifaqını yaratdı. 1930-cu illərdə Azərbaycan poeziyasının ön cərgələrində gənc istedadlar Süleyman Rüstəm, Səməd Vurğun, Mikayıl Müşfiq, Rəsul Rza və b. dururdular. Ədəbiyyata yeni gələn istedadların bir hissəsi bolşevik ideallarının carçısına çevrilmişdi.

1920-1930-cu illərdə Azərbaycan SSR-də Dövlət Dram, Dövlət Opera və Balet, Musiqli komediya, Rus dram, Gənc tamaşaçılar və digər teatrlar fəaliyyət göstərirdi. Üzeyir Hacıbəyovun “Koroğlu” operası (1937) Azərbaycan opera musiqisinin ən uca zirvəsi, milli opera sənətinin klassik nümunəsi, bəstəkarın böyük və mürəkkəb yaradıcılıq yolunun kulminasiya nöqtəsi oldu. Opera 1940-cı ildə SSRİ Dövlət mükafatına layiq görüldü.

1926-cı ildə filmlərin nümayişi ilə məşğul olan Azərbaycan Dövlət Kino İdarəsi yaradıldı. Həmin il Azərbaycanda ilk radiostansiya fəaliyyətə başladı.

### *Azərbaycan SSR 1941-1945-ci illərdə sovet-alman müharibəsi illərində*

1939 -cu il sentyabrın 1-də Almaniya Polşa üzərinə hücum etməsilə İkinci dünya müharibəsi başlandı. 1939-cu il sentyabrın 28-də Almaniya ilə SSRİ arasında bağlanmış «dostluq və sərhəd» haqqında müqavilə ilə Qərbi Ukrayna və Qərbi Belarusiya Sovet Ukraynası və Sovet Belorusiyası ilə birləşdirildi. Leninqradın təhlükəsizliyini möhkəmləndirmək bəhanəsi ilə Kreml 1939-cu ilin noyabrından 1940-cı ilin martına qədər Sovet-Fin müharibəsini apardı. Nəticədə 1940-cı ilin avqustunda Baltikyanı ölkələr “könüllü” olaraq SSRİ-yə qatıldılar. 1940-cı ildə Rumıniyanın Bessarabiya və Şimali Bukovina əraziləri SSRİ-yə birləşməsi nəticəsində onun tərkibində Moldova Respublikası yaradıldı.

Avropada alman təcavüzünün genişlənməsində neft amilinin rolu, İngiltərə və Fransa hökumətlərini 1940-cı ilin ortalarına qədər Bakının neft mədənlərinin bombalanması planını nəzərdən keçirmələrinə əsas səbəb idi.[8] Müharibə ərəfəsində Almaniya SSRİ-də hasil olunan neft məhsullarının əsas idxalatçısı

[8] Органы Государственной безопасности СССР в Великой Отечественной войне. Т.1, Книга первая (ноябрь 1938-декабрь 1940). Сборник документов. М.,1995, с.361-362,374-379.

idi. (1940-cı ilə olan məlumata görə 75.2%).[9] Lakin 1940-cı ilin iyun ayında Fransa alman qoşunları tərəfindən işğal edildikdən sonra bu planlar suya düşdü.

1940-cı il dekabrın 18-də Adolf Hitler SSRİ-ə hücum haqqında "Barbarossa planı"nı imzaladı. Plana əsasən 1941-ci ilin qışına qədər alman qoşunları sovet ordusunu məğlub edərək, Arxangelsk - Həştərxan xəttindən qərbdəki Sovet İttifaqının bütün ərazisini fəth etməli idi.

1 sentyabr 1939-cu ildə SSRİ-də "Ümumi hərbi xidmət haqqında" qanun qəbul edildi. Qanun hərbi xidməti sinfi və milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların şərəfli vəzifəsi elan etdi. Bundan sonra, azərbaycanlılar, ölkənin digər millətlərinin əksər nümayəndələri kimi, başqa respublikalarda hərbi xidmət keçirdilər. Ümumi hərbi mükəlləfiyyətin tədbiqi gələcək ağır sınaqlar qarşısında azərbaycanlıların hərbi hazırlığının yaxşılaşdırılmasına kömək etməli idi. Bundan başqa respublikadan kənarda hərbi xidmət azərbaycanlıların rus dilini mənimsəməsi üçün faydalı ola bilərdi. Təcrübə göstərdi ki müharibə illərində bu problem böyük əhəmiyyət kəsb edirdi. Lakin bu yeniliklər çox gec qəbul edildiyi üçün müharibədən əvvəlki illərdə azərbaycanlıların böyük hissəsi hərbi vərdişlərə dərindən yiyələnə bilmədilər. Bu qüsur müharibə illərində özünü biruzə verdi. Müharibənin ilk aylarında sovet ordusunun ağır məğlubiyyətləri sovet rəhbərliyini milli hərbi hissələr ideyasına yenidən qayıtmağa məcbur etdi. Dövlət Müdafiə komitəsinin 11 avqust 1941-ci il tarixli qərarına əsasən Zaqafqaziya Hərbi dairəsində milli diviziyaların yaradılması barədə qəbul etmişdir[10]. Beləliklə, milli hərbi hissələrin və birləşmələrin formalaşması prosesi başlandı. Azərbaycan SSR ərazisində ilk belə diviziyalar 1941-ci ildə - 77, 402-ci, 223, 1942-ci ildə isə 416-cı və 271-ci diviziyalar təşkil edildi. Milli diviziyaların vaxtında formalaşması respublika rəhbərliyinin üzərinə düşən ən vacib vəzifələrdən biri idi. Azərbaycan SSR-də milli diviziyaların təşkili heç də o demək deyildi ki, onun tərkibi yalnız azərbaycanlılardan ibarət olacaqdı. Azərbaycan əhalisinin çoxmillətli tərkibi milli diviziyaların formalaşmasına öz təsirini göstərdi və burada azərbaycanlılardan başqa respublikada yaşayan milli azlıqlar da təmsil olunmuşdu (ruslar,ermənilər, ukraynalılar, tatarlar, yəhudilər və s.). Milli hissələrə azərbaycanlıların səfərbərliyi təkcə Azərbaycan SSR-də deyil, qonşu respublikalarda - Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR də aparılmışdı. Artıq müharibənin gedişində, döyüşlərdə verdikləri itkiləri, Sovet İttifaqının azad edilmiş bölgələrinin yerli əhalisi hesabına diviziyaların şəxsi

---

[9] Иголкин А. А. Советская нефтяная политика в 1940-м-1950-м годах. М., 2009,с.38
[10] Rusiya Sosial-Siyasi Dövlət Arxivi, fond 644, siyahı 1, iş 6, vərəq 151-153

heyətinin yenilənməsi (xüsusilə 77 və 416 diviziyalar) Azərbaycan diviziyalarının milli tərkibində nəzərəçarpacaq dəyişikliklər etmişdi.

Müharibə başlayandan sonra tələm-tələsik toplanmış milli diviziyaların şəxsi heyətinin xeyli hissəsi hərbi xidmət üçün yararsız idi: əsgərlərin böyük hissəsinin orta təhsili və hərbi təcrübəsi yox idi, onlar müasir hərbi texnika ilə tanış deyildilər. Milli hissələrin zabit korpusu əsasən slavyan xalqlarının nümayəndələrindən ibarət olması azərbaycanlı gənclərin hərbi işə yiyələnməsini çətinləşdirirdi və beləliklə döyüşçün ehtiyat qüvvələrinin hazırlanması prosesini ləngidirdi. Buna görə şəxsi heyətlə öz ana dilində iş qurmaq vacib idi. Çağırışçılar arasında rus dilini yaxşı bilməyən və ya ümumiyyətlə bilməyən kifayət qədər əsgər vardı. Həmin illərin çoxsaylı arxiv sənədləri milli diviziyalarda əsasən slavyan millətindən olan komandirlərin qeyri-slavyan mənşəli əsgərlərə qarşı etinasız münasibətini sübut edir. Bu hal xüsusilə müharibənin ilk illərində özünü biruzə verirdi. Rəhbər komanda heyəti arasında belə bir fikir geniş yer almışdır ki qeyri- slavyan millətindən olan əsgərlər döyüşə bilmirlər və istəmirlər. Hərbi hissələrin rəhbərliyində Qafqaz xalqlarından olan əsgərlərə münasibətdə məkrli-istehza ləqəblərindən (qıvrımlı, qara rəngli və s.) istifadə geniş yer almışdı. Azərbaycanlıların, gürcülərin, ermənilərin, özbəklərin və digər qeyri-slavyan xalqlarının döyüş qabiliyyətinin aşağı olması haqqında fikirlər sıravi döyüşçülər arasında da yayılmışdı. Slavyan millətindən olmayan, xüsusən də rus dilini bilməyən döyüşçülərə qarşı münasibət bəzən qəbuledilməz dərəcədə təkəbbürlü və kobud idi. Belə münasibət isə haqlı olaraq qarşı tərəfin qəzəbinə səbəb olurdu.[11] Rus dilini yaxşı bilməyən azərbaycanlı əsgərlər bəzən qarşılarında qoyulan vəzifələri və onlara ünvanlanan əmrləri başa düşmürdülər. Bu isə qarşılıqlı ədavətə səbəb olurdu. Bu cür vəziyyət slavyan millətindən olan zabitlərin kobudluğu və tətbiq olunan cəzaların şiddəti ilə daha da mürəkkəbləşirdi. Buna görə də, qeyri-slavyan millətindən olan əsgərlər arasında, xüsusilə də müharibənin ilk illərində ölümdən xilas olmaq üçün fərarilik, özünü qəsdən odlu silahdan açılmış atəşlə yaralamaq və s. hallara tez-tez rast gəlmək olardı.

Ümumlikdə müharibə illərində respublikadan 700 minə qədər vətəndaş səfərbər olunmuşdur. Onlardan 400 mindən çoxu geri qayıtmamışdır. Azərbaycan milli diviziyaları Şimali Qafqaz, Ukrayna, Krım, Polşa, Yuqoslaviya, Macarıstan, Avstriya, Almaniya uğrunda gedən döyüşlərdə fərqlənmişdilər. Belə ki, 77-ci diviziyaya "Simferopol", 416-cı- "Taqanroq", 223-cü- "Belqrad" fəxri adları verilmişdi. Cəbhədə göstərdikləri şücaətə görə respublikanın 120-dən çox vətəndaşı Sovet İttifaqı Qəhrəmanı ordeni ilə təltif

---

[11] ЦК ВКП (б) и Национальный вопрос. Книга 2, 1933-1945. М., 2009, s.706

edilmişdir. Onlardan 42 nəfəri azərbaycanlı idi. Onların arasında Moskvanın və Novqorod vilayətinin Pustınka kəndi uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adını almış baş serjant İsrafil Məmmədov, Stalinqrad və Baltikyanı ərazilərin azad olunmasına görə iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanov, Ukrayna və Polşanın azad olunmasında iştirak etmiş leytenant Ziya Bünyatov və digərləri var idi. Azərbaycanlılar hərbi əsir düşərgələrindən qaçaraq Avropa ölkələrinin müqavimət hərəkatına qoşulmuşdular. Yuqoslaviyada Müqavimət hərəkatının iştirakçısı olmuş və ölümündən sonra 1957-ci ildə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Mehdi Hüseynzadə. Fransanın müqavimət hərəkatında Armed Mişel" ləqəbi ilə fəal iştirak etmiş Əhmədiyyə Cəbrayılov şəxsi igidliyə görə Hərbi medalla təltif olunmuşdu. Müharibə illərində 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmişdir.

Müharibə dövründə həm alman ordusunda, həm də Almaniyanın işğal etdiyi ərazilərdə faşistlərlə əməkdaşlıq edən sovet vətəndaşlarının, həmçinin SSRİ-dən olan siyasi mühacirlərin sayı heç də az deyildi. Sovet vətəndaşlarının (hərbi əsirlərin, işğal olunmuş ərazilərdə qalmış mülki əhalinin) və siyasi mühacirətin almanlarla əməkdaşlığının əsas səbəblərini ümumiləşdirsək, aşağıdakı nəticələrə gəlmək olar: 1. SSRİ xalqlarına azadlıq verəcəyini vəd edən faşist Almaniyasının anti-kommunist təbliğatının güclü təsiri; 2.Əsirlərin çətin, qeyri-insani şəraiti, almanlarla işbirliyinin yaşamaq üçün yeganə imkan olması. 3.Əsirləri "vətən xainləri" elan etmiş Stalin rejimi tərəfindən onlara qarşı hazırlanmış repressiyalar; 4.1920-30-cu illərdə yaşanan məhrumiyyətlərə, əzablara və repressiyalara görə sovet vətəndaşlarının Kommunist Partiyası və Sovet hakimiyyətini bağışlamaq istəməməsi. Müharibə illərində alman əsirliyində müxtəlif hesablamalara görə 100-150 min azərbaycanlı olmuşdur. Almaniyada Milli Azərbaycan Komitəsinə rəhbərlik etmiş Məhəmməd Əmin Rəsulzadə və digər mühacir liderləri alman faşist düşərgələrinə baş çəkərək burada saxlanılan soydaşlarının vəziyyəti ilə tanış olaraq, onların ehtiyaclarını təmin etməyə çalışırdılar. Hitler hökuməti Azərbaycanın mühacir liderləri ilə Xarici İşlər Nazirliyi və Şərq Nazirliyi vasitəsi ilə danışıqlar aparırdılar. Lakin mühacirlərin Almaniya hökuməti təmsilçiləri ilə danışıqları uğurlu getmirdi, çünki onların ölkələrinin müstəqilliyini bərpa etmək tələbini almanlar qəbul etmirdi. Belə olduqda, Rəsulzadə 1942-ci ildə Almaniyanı tərk etmişdi. Sonrakı dövrdə alman rəsmilərinin bütün cəhdlərinə baxmayaraq, Rəsulzadə onlarla bütün əlaqələri kəsmişdi. Çünki başqa xalqların müstəqilliyinə və azadlığına son qoymuş Almaniyanın Azərbaycana müstəqillik verəcəyinə Rəsulzadə qətiyyən inanmırdı. Buna baxmayaraq müharibə illərində təxminən 25-35 min

azərbaycanlı alman ordusunun legion hissələrində xidmət etmişdir.[12] Azərbaycanlılardan ibarət ilk 8 batalyon 1942-1943-cü illərdə Polşa ərazisində yaradılmışdı.[13] 1943-cü ilin may ayına qədər Ukrayna ərazisində daha 6 batalyon yaradılmışdı.[14] Sonrakı dövrdə azərbaycanlı legionerlərin bir qismi Avropa xalqlarının Müqavimət hərəkatına qoşularaq alman ordusuna qarşı döyüşlərdə iştirak etmişdilər. Müharibə bitdikdən sonra müttəfiqlərə təslim olan milli legion üzvləri müxtəlif Avropa ölkələrinə köçmüşdülər, sovet ordusuna əsir düşənlər və ya təhvil verilənlər isə filtrasiyadan keçərək sovet məhkəmə orqanları tərəfindən müxtəlif ağır cəzalar ( güllələnmişdilər və ya uzun müddət azadlıqdan məhrum olmuşdular) almışdılar.

Müharibə illərində ordunun yanacağa olan tələbatının 75%-ni Bakı neftçiləri ödəyirdi. 1941-ci ildə Azərbaycan neftçiləri rekord səviyyədə neft hasil etmişdilər -23 milyon ton. 1941-ci ilin ikinci yarısından və 1942-ci ildə Azərbaycanda olan neft avadanlıqlarının, mühəndis və texniki kadrların bir hissəsi "İkinci Bakı"ya - Volqaboyu bölgələrə və Urala köçürüldü. Bakı neftinin Sovet İttifaqının müharibədə qələbəsini təmin edən mühüm amillərdən biri olmaqla yanaşı, faşist Almaniyasının SSRİ-ə hücumunun əsas səbəblərindən biri hesab etmək olar. Alman Reyxi üçün Bakı neftinin əhəmiyyəti "Barbarossa" planının iqtisadi bölməsi olan Oldenburg planında öz əksini tapmışdır. Burada neft Almaniyanın Sovet İttifaqına qarşı hərbi kampaniyasında əsas iqtisadi hədəfi kimi göstərilir.

1941-ci ilin dekabrında Moskva yaxınlığında ağır məğlubiyyətdən sonra alman ordusunun yanacaq ehtiyatı tükənmişdir. 1942-ci ildə yeni hərbi kampaniyanı davam etdirmək üçün Almaniyaya yanacaq ehtiyatlarını bərpa etmək lazım idi. A.Hitlerin və onun ətrafının fikrincə 1942-ci ildə Şərqdə ikinci yay kampaniyası zamanı Qafqazın neft mərkəzlərinin tutulması Sovet İttifaqı üzərində qələbənin açarı olmalı idi. Buna görə 1942-ci ilin yaz kampaniyasının əsas istiqaməti kimi SSRİ-in əsas neft mərkəzləri Qroznı, Maykop və Bakı seçilmişdi. Alman rəhbərliyi həm də Qafqaz vasitəsilə Yaxın Şərqin "böyük neftinə" çıxacağına ümid edirdi. 5 aprel 1942-ci ildə Hitler əsas məqsədi Qafqaz nefti olan 41 saylı Blau direktivini imzaladı. 23 iyul 1942-ci il tarixində Blau planının tərkib hissəsi kimi "Edelveys" planı təsdiq edildi. Eyni vaxtda Stalinqrad şəhəri üzərinə başlanmış hücum alman qoşunlarının Qafqaza hücum edən qüvvələrinin şimal-şərq cinahını qorumaq məqsədini daşıyırdı. Beləliklə, 1942-ci ildə faşist Almaniyasının yay hərbi kampaniyasının əsas məqsədi

[12] Дробязко С.И., Романько О.В., Семенов К.К. Иностранные формирования Третьего рейха. М., 2011, с.404
[13] Там же, с. 368
[14] Там же, с. 370

Stalinqradın tutulması deyil, Qafqaz nefti idi. Lakin nasist rəhbərliyində heç kəs təsəvvür edə bilməzdi ki ilk baxışdan hərtərəfli düşünülmüş bu plan Almaniyaya necə böyük itkilər gətirəcək. 1942-ci ilin iyulundan 1943-cü ilin oktyabrına qədər Qafqaz və Stalinqrad uğrunda gedən şiddətli döyüşlərdə, hər iki tərəfdən böyük itkilərə baxmayaraq, alman qoşunları məqsədlərinə çata bilmədilər. Beləliklə, İkinci dünya müharibəsinin ən vacib döyüşünü - Stalinqrad döyüşünü-əslində "Neft uğrunda böyük döyüş " adlandırmaq olar.

Azərbaycanda cəbhə üçün 130 növ müxtəlif növ silah, sursat və başqa hərbi ləvazimat istehsal olunurdu. Azərbaycan ərazisi Sovet İttifaqının işğal olunmuş qərb rayonlarından əhalinin və sənaye müəssisələrinin ölkənin şərq bölgələrinə təxliyə edilməsində mühüm tranzit arteriyasına çevrilmişdir. Bakı şəhəri və Bakı limanı müttəfiqlərin hərbi təyinatlı sursatlarının daşınması üçün mühüm quru və su nəqliyyat yolu idi. Xəzər dənizçiləri dünya təcrübəsində ilk dəfə olaraq Bakı nefti ilə doldurulmuş sisternləri gəmilərin yedəyinə alıb aparırdılar.

SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı, respublikanın elmi-tədqiqat müəssisələri, ali məktəblərin kafedraları öz işlərini müharibənin tələblərinə uyğun qurmağa başladılar. Yusif Məmmədəliyevin ideyası əsasında Bakıda yüksək oktanlı alkilbenzol və onun tərkib hissəsini istehsal edən yeni müəssisə fəaliyyətə başladı. Bakının elmi laboratoriyalarında tank əleyhinə şüşələrə doldurulmuş yandırıcı qarışıq (Molotov kokteli) və başqa partlayıcılar istehsal olunurdu.

Müharibənin ilk günlərindən Azərbaycan ərazisində hərbi hospitalların təşkilinə başlanmışdı. Məktəb binalarının əksəriyyəti, xüsusən Bakıda, hospitallara və müdafiə müəssisələrinə verilmişdi. Naxçıvan, Şuşa, Şəki, Hacıkənd, Mərdəkan və Buzovnada yerləşən sanatoriyalar və istirahət evləri hərbi hospitallara çevrilmişdi.1941-ci ildə respublikada 76 hərbi hospital yaradıldı. Azərbaycan Xalq Tibb Komissarlığının Hərbi Hospitallar İdarəsinin baş cərrahı, tibb elmləri doktoru, professor Mustafa Topçubaşovun xidmətləri xüsusilə qeyd olunmalıdır. O, cərrahlığa xeyli yenilik gətirdi, ən mürəkkəb cərrahi əməliyyatları böyük ustalıqla həyata keçirərək, yüzlərlə döyüşçünün həyatını xilas etdi.

Azərbaycan faşist işğalçılarından azad edilmiş rayonlarda xalq təsərrüfatının bərpasına fəal kömək göstərmişdi. Şimali Qafqaz, Leninqrad, Stalinqrad, Stavropol, Qaraçay, Ukrayna təsərrüfatlarına çoxlu pul, ərzaq, tikinti materialı, mal-qara, istehsal avadanlığı və s. göndərilirdi.

Beləliklə SSRİ-nin 1941-1945-ci illər müharibəsində qalib çıxmasının başlıca səbəbi ölkənin, xalqın gücünün qələbəyə uğurla səfərbər olunması idi.

Ölkə rəhbərliyi inzibati idarəçilik metodlarından istifadə edərək iqtisadiyyatı qısa bir zamanda hərbin tələbləri əsasında yenidən qurmağa və sovet xalqlarının iqtisadi, hərbi və mənəvi qüvvələrini birləşdirə bilmişdi. Azərbaycan xalqı da müharibənin ağır yükünü öz çiyinlərində daşımış və faşizm üzərində tarixi qələbə qazanılmasında mühüm rol oynamışdır.

### *Son stalinizm dövründə hakimiyyətin cəmiyyət üzərində nəzarət sisteminin güclənməsi (1945-1953)*

Müharibədən sonra Azərbaycanın siyasi sistemində heç bir köklü dəyişikliklər baş vermədi. 1947 və 1951-ci illərdə Azərbaycan SSR Ali Sovetinə seçkilər keçirildi. "Xalq hakimiyyəti" orqanlarına seçkilər ciddi nəzarət, inzibati təzyiq altında keçirilirdi. Səsvermədən yayınmaq demək olar ki, qeyri-mümkün idi. 1946-cı ildə Azərbaycan Xalq Komissarları Şurası Nazirlər Şurası adlandırılmışdı. Müharibədən sonrakı illərdə "xalq düşmənlərinin" axtarışının intensivliyi 1930-cu illərin ikinci yarısındakı qədər olmasa da, bu proses davam etməkdə idi. Hakimiyyət repressiv siyasəti ilə cəmiyyətdəki psixoloji iqlimi gərginlik vəziyyətində saxlamağa çalışırdı və məqsədinə çatırdı.

Siyasi rejimin sərtləşməsinin təzahürlərindən biri də elm, ədəbiyyat və incəsənət üzərində hakim ideologiyanın inhisarının daha da güclənməsi idi. Şəxsiyyətə pərəstişin ağır nəticələri ictimai, humanitar, xüsusilə, tarix elmində özünü daha çox göstərirdi. XX əsrin tarixinə aid tədqiqatlar rus xalqının SSRİ-də yaşayan bütün digər xalqların tarixində və həyatında xüsusi rolu mövzusu aparıcı ideoloji mövzulardan birinə çevrilmişdi, rus xalqının "böyük qardaş" kimi qəbul olunması ideyası geniş vüsət almışdı. Azərbaycanın Rusiyaya könüllü birləşməsi tezisi qəti şəkildə tarix elmində yer tutmuşdur. Çarizmə qarşı xalq azadlıq mübarizəsi, milli partiyaların, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ciddi təhrif olunurdu, "Musavat" hökumətinin xalqa zidd siyasət yürütdüyü iddia olunurdu.

Azərbaycan xalqının ən qabaqcıl, nüfuzlu şəxsiyyətlərinə, ələlxüsus millətin mənəvi aparıcı təbəqəsi olan ziyalılara qarşı təqiblər davam edirdi. Rəsmi ideologiyaya uyğun gəlməyən fikirlər söyləmək üstündə alimlər repressiyalara məruz qalırdı və əsərləri qadağan edilirdi. Akademik Heydər Hüseynovun 1949-cu ildə çap olunmuş "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəri Stalin mükafatı almışdır. O bu əsərində Şeyx Şamilin hərəkatını çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizə kimi qiymətləndirmişdi. Bu fikir "yuxarılara" xoş gəlmədi. Onlar bu hərəkatı guya

rus xalqına qarşı mübarizə kimi qiymətləndirimişdilər. M.C. Bağırov H.Hüseynovun əsərini möhkəm tənqid etmişdi[15] və o, Stalin mükafatından məhrum edilmiş, ağır təqiblərə məruz qalmış, özünə qarşı haqsızlığa görə intihar etmişdir. Heydər Hüseynovun əsərinə verdikləri yüksək qiymətə görə yazıçılardan Mirzə İbrahimov, Məmməd Arif A. Dadaşzadə və Mehdi Hüseyn, professor, SSRİ Elmlər Akademiyasının müxbir üzvü Aleksandr Makovelski elmi-siyasi sayıqlığı itirməkdə tənqid edilmişdilər.

1940-cı illərin sonu və 50-ci illərin əvvəllərində " Kitabi Dədə Qorqud" hakimiyyətin hücum obyektinə çevrilmişdi. Hücumlar eposun türk xalqlarının ortaq köklərinə, türk dünyasının tarixi bir gerçəklik olaraq varlığına canlı şəkildə şahidlik etməsi ilə bağlı idi. Bu xalq sənəti abidəsi həm də türk xalqlarının İslam mənşəyindən bəhs edirdi. Yazıçılar arasında dastanı ifşa etmək üçün geniş kampaniya başlamışdı. M.C.Bağırov 1952-ci ildə ÜK(b)P-nin XIX qurultayındakı çıxışında dastanı "millətçilik və panislamizmin zəhərinə bürünmüş irticaçı, xalq əleyhinə bir kitab" adlandırmışdı.

Siyasi dünyagörüşü yüksək olan gənclər arasında mövcud quruluşun ziddiyyətlərini, problemlərini dərk etməyə çalışanların sayı artırdı. Ilk gizli dissident təşkilatlar yaranırdı. Belə təşkilatlardan birinin –«İldırım» təşkilatının üzvlərindən İsmixan Rəhimov, Gülhüseyn Abdullayev (Hüseynov), Hacı Zeynalov, Kamal Əliyev, Aydın Vahidov və digərlərinin başlıca məqsədi – sovet Konstitusiyası ilə Azərbaycan xalqına verilmiş hüquqlar uğrunda mübarizə aparmaq idi. Azərbaycanın müstəqilliyi üçün xalqa onun qüvvələrini birləşdirə biləcək güclü, tanınmış bir rəhbərin başçılıq etməsini vacib bilərək təşkilatın üzvləri S.Vurğuna gizli məktubla müraciət etmişdilər. Onlar xalqın qüvvələrini birləşdirə biləcək güclü, tanınmış bir rəhbərin başçılıq etməsini vacib bilərək, S.Vurğunun razılığını alıb, onu bu təşkilatın rəhbərliyinə cəlb etmək istəyirdilər. Lakin məktub Dövlət Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının əlinə düşür. 1948 –ci ildə təşkilatın üzvləri həbs olunurlar. Onlar əksinqilabi təbliğatın aparılmasında, Sovet Azərbaycanını SSRİ-dən ayırmaq və milli burjua respublikası yaratmaq cəhdində, Azərbaycanın görkəmli şairlərindən birinə anti-sovet, millətçi məzmunda məktubun yazılmasında ittiham edilir. Təşkilatın əsas rəhbərləri - İsmixan Rəhimov, Gülhüseyn Abdullayev və Hacı Zeynalov 25 illik həbs cəzasına, qalan üzvləri 10 illik həbsə məhkum edilirlər.

[15] Багиров М. К вопросу о характере движения Мюридизма и Шамиля. М., 1950, с.30-32

### *Respublikanın ərazi bütövlüyünə yeni təhdidlər və azərbaycanlıların Qərbi Azərbaycandan (Ermənistandan) deportasiyası (1948-1953)*

1945-ci ilin noyabrında Ermənistan SSR rəhbərliyinin—DQMV-nin Azərbaycan SSR tərkibində yaradılmasını erməni tərəfinin problemin həlli kimi qəbul edilmədiyini və bu ərazini birləşdirmək planlarından əl çəkmədiyini göstərdi. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Q. Arutinov ÜK (b) P MK katibi Georgi Malenkova göndərdiyi müraciətdə DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi təklifini əsaslandırmağa çalışaraq, bu addımın muxtariyyət əhalisinin inkişafı üçün daha əlverişli şərait yaradıcağını bildirirdi[16]. Arutinovun müraciəti Bağırova göndərildikdən sonra o, 10 dekabr 1945-ci ildə G. Malenkova Qarabağa dair tarixi həqiqətləri əks etdirən faktlar və irəli sürülən iddiaya qarşı mülahizələrini əks etdirən cavab təqdim etdi. Bu cavabda əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Ermənistanın Əzizbəyov (Basarkeçər), Vedi və Qarabağlar bölgələrinin Azərbaycan SSR-ə birləşdirilməsi müqabilində azərbaycanlıların yaşadığı Şuşa rayonu istisna olmaqla DQMV-nin Ermənistan SSR-ə verilməsinə razılığını bildirmişdi[17]. Bundan sonra bu məsələ sovet hökumətinin gündəliyindən çıxarıldı.

Respublika sərhədlərinin DQMV hesabına genişləndirilməsinə nail ola bilməyən G. Arutinov 1946-ci ilin payızında Stalinə müraciətində “vətənlərinə” dönən on minlərlə mühacirin yerləşdirilməsi ilə bağlı məsələnin təcili həll edilməsi barədə məsələ qaldırdı. Sovet rəhbərliyinin bu məsələyə münasibəti müsbət oldu. SSRİ Nazirlər Şurasının 1947-ci il 23 dekabr tarixli qərarına əsasən 1948-1953-cü illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına 100 min azərbaycanlı köçürülməli idi. Bu deportasiya prosesi böyük insan itkiləri ilə nəticələndiyi üçün soyqırımı ilə müşahidə olunmuşdur.

### *Stalinizm mirası ilə mübarizə və ictimai-siyasi həyatın mülayimləşməsi*

1953-cü il martın 5-də Stalinin vəfatından sonra ölkənin siyasi hakimiyyətində köklü dəyişikliklər baş verdi. Nikita Xruşşov sentyabrda Sov.İKP MK-nın birinci katibi seçildi. Azərbaycan rəhbərliyində də dəyişiklik baş verdi. 10 aprel 1953-cü ildə Mir Teymur Yaqubov Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilmişdi. M.C.Bağırov Azərbaycan SSR Nazirlər

---

[16] ARPİİİSSA, fond 1, siyahı 169, iş 249, hissə 1, vərəq 2.
[17] Yenə orada, vərəq 1-5.

Şurasının sədri vəzifəsinə təyin edilmişdi. Azərbaycan KP MK və Bakı Komitəsinin birgə plenumunda (1953, 12-13 iyul) M.C. Bağırov ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında təqsirkar bilinib vəzifəsindən kənar edildi və tezliklə həbsə alındı.

1954-cü il fevralın 14-16-da Azərbaycan KP-nin XX qurultayı keçirildi. Qurultayda M.T.Yaqubov MK-nın birinci katibi vəzifəsindən azad edildi və bu vəzifəyə İmam Mustafayev gətirildi. Mirzə İbrahimov Ali Sovetin Rəyasət Heyətinin sədri seçildi. Sadıx Rəhimov isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri təyin olundu.

Sovet İttifaqı Kommunist Partiyasının XX qurultayında (1956, fevral) stalinizm, şəxsiyyətə pərəstiş tənqid olundu, onun təzahürləri göstərildi. 1956-cı il aprelin 12-26-də Bakıda SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən M.C.Bağırov, Yuvelyan Sumbatov-Topuridze ( 1937-1938-ci illərdə Azərbaycan Xalq Daxili işlər komissarı), Xoren Qriqoryan ( 1947-1953-cü illərdə Ermənistanın Daxili işlər naziri), Timofey Borşov (1937-1938-ci illərdə Azərbaycan Xalq Daxili işlər komissarının müavini), Ruben Markaryan (1939-1941-ci illərdə Azərbaycan Xalq Daxili işlər komissarının müavini) mühakimə edilərək, xalq düşməni kimi güllələnməyə, Stepan Yemelyanov ( 1941-1953-cü illərdə Azərbaycan Dövlət Təhlükəsizliyi naziri) və Ağasəlim Atakişiyev (1950-1953-cü illərdə Azərbaycan Daxili işlər naziri) isə 25 il həbs cəzasına məhkum olundular.

Stalinin şəxsiyyətinə pərəstişin təngidi ilə ölkənin ictimai-siyasi həyatında mülayimləşmə dövrü başlanmışdı. Repressiya illərində cəzaya məruz qalanların işlərinə yenidən baxılması üçün komissiyalar təşkil olunmuş, bəraətvermə prosesi başlanmışdır. Minlərlə azərbaycanlının üzərindən “xalq düşməni” damğası götürülmüşdü. Onların ailələrinin, övladlarının məruz qaldığı təqiblərə son qoyulmuş, hüquqları bərpa edilmişdir.

1956-cı ilin ortalarından yüzlərlə dövlət, ədəbiyyat və incəsənət xadiminə bəraət verilmişdir. Azərbaycanda sovet rejiminin qurulmasında müstəsna xidmətləri olan Sultan Məcid Əfəndiyevə, Qəzənfər Musabəyova, Dadaş Bünyadzadəyə, Ruhulla Axundova, Həmid Sultanova bəraət verilmişdi. Bəraət alanlar arasında Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli və digər görkəmli şair və yazıçılar da vardı. “Kitabi-Dədə Qorqud” və “həbs olunmuş” yazılı abidələr, əsərlər azad edilmiş, bəraət almış şair və yazıçıların əsərləri yenidən çap olunmuşdur.

İctimai-siyasi ab-havanın mülayimləşməsi şəraitində respublikada Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına təşəbbüs edilmişdir. Bu məsələnin mətbuatda açıq müzakirəsi keçirilmiş, 1956-cı il

avqustun 16-da  Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə edilmişdir. Rəsmi sənədlərin, kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün konkret tədbirlər görülmüşdü. 1959-cu ilin mart ayında Azərbaycan SSR Ali Soveti rus məktəblərində Azərbaycan dilinin icbari tədrisi barədə qərar qəbul etmişdir.

Azərbaycan SSR-də milli dirçəliş meyilləri mərkəzdə kök salmış şovinistləri çox narahat etmişdir. Azərbaycanın rəhbərliyinə qarşı təziqlər başlanmış və  o, millətçilik siyasəti həyata keçirməkdə təqsirləndirilmişdir. Nəticədə  1959-cu il  iyulun 10-da Azərbaycan KP MK-nın XI plenumunda İ.D.Mustafayev vəzifəsindən azad edilmişdir. Vəli Axundov Azərbaycan KP MK-nın birinci katibi, Məmməd İsgəndərov Ali Sovetin Rəyasət Heyətinin sədri seçilmişdir,  Ənvər Əlixanov isə  Nazirlər Şurasının sədri təyin edilmişdir. Respublikanın yeni rəhbərliyi 1960-cı illər  ərzində hakimiyyətdə olmuşdu. Bu, ölkə üçün çox mürəkkəb bir dövr idi. 1964-cü ildə ölkənin ali rəhbərliyi dəyişdirildi. Leonid  Brejnev Sov. İKP MK-nın birinci katibi  seçilmişdir. Ölkənin idarəetmə sisteminə müəyyən düzəlişlər, müxtəlif  sahələrin inkişafı istiqamətində yeni prioritetlər, yeni vəzifələr və onlara nail olmaq yolları müəyyənləşdirilmişdi. Bu isə respublika rəhbərliyində  yeni tələblərə uyğunlaşmaq üçün müəyyən çeviklik tələb edirdi.

### *Sosial-iqtisadi siyasətdəki  prioritetlər və  ziddiyyətlər (1945-1969)*

Azərbaycan ərazisində hərbi əməliyyatlar aparılmasa da  müharibə nəticəsində respublika əhalisinin sayı azalmışdır. Azərbaycan SSR  əhalisi 1941-ci ilin iyun ayında  3301,1 min nəfər idi. 1946-cı ilin yanvarın 1-nə respublikada əhalinin sayı 2734,5 təşkil edirdi. Beləliklə, əhalinin sayı 17,1 % azalmışdı. Müharibədən sonra respublikada doğum səviyyəsinin yenidən artması, 1948-1953-cü illərdə azərbaycanlıların  Ermənistandan deportasiyası  tədricən respublikada əhalinin sayının artmasına səbəb olmuşdur. Artıq 1950-ci illərin sonlarında respublika əhalisinin sayı müharibədən əvvəlki səviyyəyə çatmışdı. 1959-cu ilin əvvəllərində burada 3698 min nəfər yaşayırdı. 1960-cı illərin axırlarında isə bu rəqəm 5 milyonu ötüb keçmişdi. Respublika əhalisinin sosial tərkibində də mühüm dəyişikliklər baş vermişdi. Şəhər əhalisinin sayı artmışdı.

Müharibə dövründə neft yataqlarının həddindən artıq  istismarı Bakıda neft hasilatının kəskin şəkildə azalmasına gətirib çıxartmışdı. Neft hasilatını artırmaq üçün yeni neft yataqlarının kəşfinə və istismarına böyük ehtiyac var idi. Geoloji-

kəşfiyyat işlərini genişləndirmək, yeni neft yataqlarının kəşfi və istifadəyə verilməsi işində SSRİ hökumətinin qərarı ilə 1947-ci ilin sonunda "Azneftkəşfiyyat" Birliyi yaradıldı. Dəniz neft yataqlarından istifadə etmək üçün 1948-ci ildə dünya təcrübəsində ilk dəfə dənizdə neft-mədən estakadaları tikildi. Azərbaycan alimlərinin, neftçilərinin gərgin əməyi sayəsində dünyada ilk dəfə olaraq Azərbaycanda açıq dənizdə neft çıxarılmasına başlandı. 1949-cu il noyabrın 7-də Neft Daşlarında ilk fontan vurdu. Neft emalı sənayesi inkişaf etdirilirdi. Müharibədən sonrakı beş ildə on neftayırma müəssisəsi tikilmişdi.

Müharibədən sonra Azərbaycanda Sumqayıt, Mingəçevir, Daşksəsən, Əli-Bayramlı kimi yeni sənaye mərkəzləri yaradılmışdır. Sumqayıt Azərbaycanın böyük kimya və metallurgiya şəhərinə çevrilmişdir. 1945-ci ildə Sumqayıtda kimya və 1952-ci ildə boru-prokat zavodları istifadəyə verildi. Azərbaycan SSR-in məhsuldar qüvvələrinin inkişafında 1954-ci ildə Cənubi Qafqazda ən böyük Daşkəsən dəmir filizi yatağı əsasında filiz-mədən sənayesinin yaradılması böyük hadisə oldu. 1951-ci ildə SSRİ-nin ən iri tikinti müəssisələrində biri olan Qaradağ sement zavodu işə salındı. Beləliklə, respublikada inşaat materialları istehsalı ildən-ilə artmağa başladı.

Mərkəz respublikadakı əmək ehtiyatlarından daha səmərəli istifadə etmək üçün burada istehlak malları istehsal edən müəssisələrin yaradılmasında maraqlı idi. 1950-ci illərin sonu -1960 –cı illərdə Azərbaycanda onlarla belə müəssisə tikilib istifadəyə verilmişdi. Yeni müəssisə və sexlərin çoxu köhnəlmiş avadanlıqla təchiz edildiyindən, buraxılan məhsulun keyfiyyət çox zaman aşağı olurdu.

1954- cü ildə Mingəçevir su elektrik stansiyasının və Şimal Dövlət rayon elektrik stansiyasının, 1968-ci ildə Əli-Bayramlıda Dövlət rayon elektrik stansiyasının istifadəyə verilməsi respublika sənayesinin və əhalisinin elektrik enerjisinə olan tələbatının ödənilməsində mühüm rol oynamışdır.

1947-ci ilin sonunda ərzaq talonları ləğv edildi. Lakin həyata keçirilmiş pul islahatı istehlakçının büdcəsinə ağır zərbə vurmuşdur. Pərakəndə ticarət bərpa edilmişdi, malların qiyməti müharibədən əvvəlki dövrlə müqayisədə xeyli artmış, amma maaşlar eyni səviyyədə qalmışdır.

Kənd təsərrüfatının bərpa və inkişafına diqqət artırılsa da, onun texniki təchizatı aşağı səviyyədə qalırdı. Kolxoz və sovxozların məhsullarının satınalma qiymətləri isə o qədər aşağı idi ki, kolxozçuların və fəhlələrin əməyinin haqqını çox vaxt ödəmək mümkün olmurdu. 1958-ci ildə Maşın-traktor stansiyaları ləğv olunmuş, onların texnikası kolxozlara satılmışdı. Kolxozçulara pasportun verilməsi tətbiq edilmişdir.

1950-ci illərin ikinci yarısı -1960 –cı illərdə Baş Muğan, Yuxarı Şirvan kanalları, Bəhramtəpə, Xatınçay, Ağstafaçay su anbarları tikilməsi ilə yüz minlərlə hektar suvarılan əkin sahəsi istifadəyə verilmişdir. Taxıl təsərrüfatı əkin sahəsinə görə respublikanın kənd təsərrüfatı istehsalında əsas yer tuturdu. Kənd təsərrüfatının başqa sahələri olan tütün, çay, tərəvəz məhsulları istehsalı da artmışdı. Kənd təsərrüfatının bir sıra sahələrində müvəffəqiyyətlər əldə edilsə də, pambıqçılıq sahəsində görülən tədbirlər istənilən nəticəni verməmiş, pambıq istehsalı azalmışdır.

1950-cillərin ikinci yarısı-1960-cı illərdə respublikada əhalinin məişət şəraitində də müəyyən dəyişikliklər baş vermişdi. Mənzil tikintisi xeyli genişlənmişdi. Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1955-ci il 4 noyabr tarixli qərarına əsasən birtipli sadə layihələr üzrə əvvəllər beş mərtəbəli "Xruşşov evlər", sonralar dəmir-beton panellərdən binalar tikintisi şəhərlərin özünəməxsusluqdan, milli memarlıq ənənələrindən məhrum edir, simasızlaşdırırdı. Mənzil tikintisi xeyli artsa da, əhalinin tələbatı tam ödənilmirdi. 1967-ci ilin noyabrında tikintisinə hələ 1949-cu ildən başlanmış Bakı metropoliteninin ilk 6 stansiyası işə salındı.

Beləliklə, müharibə başa çatdıqdan sonra Azərbaycan iqtisadiyyatı tədricən dinc dövrə qədəm qoydu. Lakin iqtisadiyyatın inkişafı xarakterinə görə müharibədən əvvəlkindən fərqlənmirdi. Neft sənayesi hələ də prioritet sahə idi. Eyni zamanda respublikanın sənaye mərkəzlərinin coğrafiyası da genişlənmişdir. Demək olar ki, müharibədən sonra respublikada ikinci sənayeləşmə həyata keçirildi. Bununla paralel olaraq respublikanın enerji sisteminin modernləşdirilməsi baş verdi. İqtisadiyyatın idarə olunmasında sərt mərkəzçilik üsulları üstünlük təşkil edirdi. Hökumət kənddə fərdi təsərrüfatı məhdudlaşdırmağa çalışır və kənddən gələn gəlirləri şəhərə sərmayə qoymaq üçün istifadə edirdi. Taxıl, ət və süd məhsullarının tədarük və satınalma dövlət qiymətlərinin son dərəcə aşağı olması bir tərəfdən kolxozçu-kəndlilərin maddi durumunu ağırlaşdırır, digər tərəfdən isə respublikanın sənaye mərkəzlərində kəskin çörək və digər ərzaq məhsullarının qıtlığına gətirib çıxartmışdır. Belə ki 1963-cü ilin "7 noyabr" bayramları vaxtı Sumqayıtda baş vermiş kütləvi iqtişaşlar məhz bu səbəbdən baş vermişdir. Kənd əhalisinin pasportlaşdırılması əhalinin kənddən şəhərə yeni miqrasiyasına səbəb oldu. Bunun sayəsində Bakıda azərbaycanlıların xüsusi çəkisi artsa da, kənddə işçi qüvvəsinə kəskin ehtiyac yarandı, şəhərdə isə işsizlərin sayı, cinayətkarlığın səviyyəsi artdı. Mənzil və mədəni-məişət tikintisinin miqyasının artması şəhər əhalisinin artımından geri qalırdı. Azərbaycan iqtisadiyyatının inkişafındakı bütün bu ziddiyyətlər 1960-cı

illərin sonlarında respublikanın bir çox sosial-iqtisadi göstəricilərə görə ittifaqda son yerlərdən birini tutması ilə nəticələndi.

### *Ermənistan ərazi iddiaları və Azərbaycanın Qarabağ bölgəsi ətrafında yenidən gərginliyin yaranması*

1950-ci illərin ikinci yarısı -1960-cı illərdə Ermənistanda Azərbaycanın Qarabağ bölgəsinə ərazi iddiaları yenidən gündəliyə gətirdi. Ermənistanda və DQMV-də bu hərəkat artıq daha geniş miqyas alaraq, təkcə partiya rəhbərliyi tərəfindən deyil, əhalinin müxtəlif təbəqələrinin imzası ilə İttifaq rəhbərliyinə göndərilən petisiya və müraciətlər şəklində həyata keçirilirdi. Əslində bu ermənilərin necə düşündüyünü və Sovetlər İttifaqının necə idarə olunduğunu göstəririrdi: ermənilər heç vaxt problemin həlli üçün Bakıya müraciət etmirdilər.

Bu dövrdə xaricdə yaşayan ermənilər xüsusilə fəallaşmışdılar. 1960-ci illərin əvvəllərində Sovet hökumətinin xaricdə yaşayan ermənilərə SSRİ-yə köçməsinə icazə verməsi, «Daşnaksutyun» partiyasının agenturasını fəallaşdırdı və onlar bu vasitə ilə Ermənistan SSR ərazisinə müxtəlif təxribatçı qrupların keçməsinə çalışdı. 1965-ci ildə Ermənistanda sözdə soyqırımın 50-ci ildönümünə həsr olunmuş tədbirlər antitürk və antiazərbaycanlı kampaniyaların artmasına səbəb olmuşdur.

Müharibədən sonrakı ilk onilliklərdə ermənilərin Azərbaycana qarşı təxribat xarakterli fəaliyyəti sistemli şəkildə davam etdirilirdi. 1967-ci ildə ermənilər Xankəndidə azərbaycanlılara qarşı qanlı hadisələr törətmişdir. Xocavənd rayonunun Kurapatkino kəndində yerli kolxozun aqronomunun 8 yaşlı oğlunun müəmmalı şəraitdə qətlə yetirilməsində ermənilər üç azərbaycanlını- Ərşad (məktəb direktoru), Ələmşad və Zöhrab Məmmədovlar qardaşlarını günahlandırmışdılar. İyul ayının 3-də Məmmədov qardaşlarına Xankəndi yay kinoteatrında məhkəmə hökmü oxunduqdan sonra məhkəmə zalından hərbi konvoyun müşahidəsi ilə çıxarılan qardaşlara hücum edən ermənilər onları vəhşicəsinə qətlə yetirmişdilər. Həmin hadisələrlə bağlı Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri Heydər Əliyev 15 gün Xankəndində olmuşdu. Nəticədə 19 nəfər cinayət məsuliyyətinə cəlb olunmuş, onlardan 5 nəfəri güllənməyə məhkum olunmuşdur. Bu hadisələr bir daha onu sübut etdi ki erməni separatçıları öz çirkin məqsədlərinə çatmaq üçün hətta qanlı təxribatlar törətməyə hazır idilər.

## *Mədəniyyətin inkişafında milli dirçəliş meylləri*

Sovet imperiyası məktəbə müəyyən əmək vərdişlərinə, bilik və bacarıqlara malik, mövcud rejimə sadiq icraçı işçilər, kadrlar hazırlamağın mühüm vasitəsi kimi baxırdı. Hələ 1959-ci ildə məktəblərdə icbari səkkizillik, 1966 –ci ildə isə məcburi onillik təhsilə keçirilmişdi. Məktəblərdə "SSRİ tarixi" adı altında Rusiyanın tarixi tədris edilirdi. Dərsliklərdə sovet cəmiyyəti ziddiyyətsiz, qüsurlardan xali bir şəkildə təqdim və təqdir olunurdu. Məktəblərdə biliklərin qiymətləndirilməsində, ali və orta ixtisas məktəblərinə qəbulda qeyri-obyektivlik adi hala çevrilmişdi. Konkret bilikdənsə təhsil haqqında diplomun olması daha vacib sayılırdı.

İdeoloji təbliğat işində ədəbiyyatdan, incəsənətdən, tarixi hadisələrdən geniş istifadə olunurdu. Azərbaycanda "7 noyabr" bayramı xüsusi təntənə ilə qeyd olunurdu. Hər il " 28 aprel" –Azərbaycanın XI Qızıl Ordu tərəfindən işğalı günü Sovet hakimiyyətinin qurulması günü kimi qeyd olunurdu. 1964-cü ilin mayında Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının 150 illiyi xalqın tarixində ən parlaq hadisə kimi qeyd olunmuşdu. Şəhər və kəndlərə, küçə və meydanlara, müəssisələrə rəhbərlərin, inqilabçı bolşeviklərin adlarının verilməsi, onlara yaşayış məntəqələrinin ən görkəmli yerlərində abidələrin ucaldılması da mühüm ideoloji məqsəd daşıyırdı. Bununla yanaşı, 1960-cı illərdə milli-mədəni dəyərlərin qorunub saxlanması və dirçəlməsi sahəsində də bir sıra mühüm addımlar atılmışdır. Azərbaycan KP MK –nın katibi Şıxəli Qurbanovun təşəbbüsü ilə 1967-cı ildə Novruz bayramı "Bahar bayramı" kimi ilk dəfə rəsmən qeyd olunmuşdu. İdeoloji aparatın ateist təbliğatına baxmayaraq xalq milli ənənələrini qoruyub saxlamağa çalışırdı. Dini bayramlar və mərasimlər yarımleqal şəkildə qeyd olunurdu.

1960-cı illər Azərbaycanda dissident hərəkatı ilə də yadda qalmışdır. Onun təsir imkanları kiçik olsa da, cəmiyyətdə, xüsusilə onun ziyalı təbəqəsi arasında sovet quruluşuna qarşı etirazın artmasını bir daha sübut edirdi. Beləliklə milli-azadlıq uğrunda mübariz yeni nəsil yetişməkdə idi. 1962-ci il dekabrın 17-də 95 nəfərin iştirak etdiyi gizli yığıncaqda "Milli Azərbaycan Qərargahı" (MAQ) təşkil olundu. Onun sədri Oqtay Rəfili, sədr müavini Xudu Məmmədov seçildi. MAQ-ın rayonlarda şöbələri yaradıldı. Təşkilatın başlıca məqsədi rəhbər vəzifələrdə azərbaycanlıların olmasına, respublika büdcəsinə ayırmaların Moskvada deyil, Bakıda həll olunmasına çalışmaq. 1963-cü ildə Azərbaycan Dövlət Universitetində "Qaranquş" təşkilatı yaranmışdır. Təşkilatın əsas yaradıcıları Mövlud Balakişiyev (sonralar Mövlud Süleymanlı kimi tanınan Xalq yazıçısı), Tofiq Abdin (Tofiq Məhərrəmoğlu), Tanrıqulu Əliyev , Azər

Abdulla, Bağır Ağayev və başqaları idi. Təşkilatın əsas məramı - savadlanıb, bilgilənib, Cənubi Azərbaycanı xilas etmək olub. Üzvlərin sayı 80 nəfərə çatırdı. O dövrdə yaradılan digər bir təşkilat "Qobustan" toplusu ətrafında birləşmişdi. Bu təşkilata "Qobustan" toplusunun ilk məsul katibi Vidadi Paşayev başçılıq edirdi.

Respublikanın elmi potensialını səfərbər etmək üçün SSRİ XKŞ-nın 1945-ci il 23 yanvar tarixli  qərarı ilə SSRİ EA Azərbaycan filialı əsasında Azərbaycan SSR Elmlər Akademiyası təşkil olundu. Respublika akademiyasının ilk prezidenti (1945-1947) akademik Mirəsədulla Mirqasımov oldu.

İctimai elmlər sahəsində da müəyyən nailiyyətlər əldə edilmişdi. H. Hüseynovun "XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən", Əbdüləzəl Dəmirçizadənin "Kitabi-Dədə Qorqud dastanının dili" əsərlərinin nəşri irəliyə doğru mühüm addım idi.

Əhalinin maariflənməsində, mədəni səviyyəsinin yüksəlməsində, ictimai-siyasi fəallığının artmasında mətbuat əhəmiyyətli rol oynayırdı. Eyni zamanda mətbuat tamamilə kommunist ideologiyasının inhisarı altında idi. 1946-cı ildə Azərbaycanda 87 qəzet çıxırdı, 1970-ci ildə isə onların sayı 118-ə (o cümlədən 93-ü Azərbaycan dilində) çatmışdı.

Müharibədən sonra yazıçı və şairlər tarixi mövzulara müraciət edərək xalqı vətənpərvərlik ruhunda tərbiyə etməyə çalışırdılar. Bu baxımdam Məmməd Səid Ordubadinin "Qılınc və qələm", İsmayıl Şıxlının "Dəli Kür", İsa Hüseynovun "Məşhər", Fərman Kərimlinin "Axırıncı aşırım"  və başqa müəlliflərin əsərləri mühüm rol oynayırdı. Bəxtiyar Vahabzadənin 1958-ci ildə yazdığı "Gülüstan" poeması gizli şəkildə yayılır, əldən-ələ gəzirdi.

Milli şüurun oyanmasında Cənub mövzusunda əsərlərin xüsusi əhəmiyyəti vardı. Süleyman Rüstəmin Cənub mövzusunda yazdığı silsilə şerlər böyük poetik və siyasi təsir gücünə malik idi. Balaş Azəroğlunun, Əli Tudənin, Söhrab Tahirin, Mədinə Gülgünün, Hökimə Büllurinin əsərlərində parçalanmış vətən, ayrılıq, həsrət mövzuları əsas yer tuturdu. 1966-cı ildə İranda yaşayan görkəmli Azərbaycan şairi Məhəmməd Hüseyn Şəhriyarın "Heydər babaya salam" poeması Bakıda çap olunmuşdu.

Respublikanın musiqi həyatında Fikrət Əmirovun yaratdığı "Şur" və "Kürd-ovşarı" əsərlərində yeni simfonik musiqi janrı - simfonik muğam mühüm hadisə olmuşdu. Bir qədər sonra Niyazi "Rast" simfonik muğamını, Süleyman Ələsgərov isə "Bayatı-Şiraz" simfonik muğamını yaratdılar. C.Cabbarlının eyni adlı dramının süjetinə F.Əmirovun yazdığı "Sevil" operası (1953) opera sənətində parlaq səhifə olmuşdu. Qara Qarayevin "Yeddi gözəl" baleti (1952) Azərbaycan balet sənətini yeni inkişaf pilləsinə yüksəltmişdi. Mahnı janrı sürətlə

inkişaf edirdi. Bu janrı Tofiq Quliyev, Səid Rüstəmov, Cahangir Cahangirov, Rauf Hacıyev və başqaları təmsil edirdilər.

Azərbaycan kinematoqrafçılarının 1945-ci ildə istehsal etdiyi "Arşın mal alan" filmi nəinki SSRİ-də, hətta bütün dünyada çox böyük müvəffəqiyyətlə nümayiş etdirilmişdi. Bu filmin yaradıcıları və ifaçıları Dövlət mükafatına layiq görülmüşdü. 1954-1958-ci illərdə respublikanın kino sənəti tamaşaçılar tərəfindən hərarətlə qarşılanan yeni filmlərin - "Qara daşlar", "Qızmar günəş altında", "Bir məhəlləli iki oğlan", "Uzaq sahillərdə", "O olmasın, bu olsun", "Ögey ana" və b. filmlərin yaradılması ilə əlamətdar olmuşdu.

Bu illərdə Bakıda görkəmli heykəltaraşlar Fuad Əbdürrəhmanovun "Nizami Gəncəvi" (1949-cu ildə), "Azad qadın" (1960-cı il), "Səməd Vurğun" (1961-ci il), Cəlal Qaryağdının "Mirzə Ələkbər Sabir" (1958-ci il), Tokay Məmmədovun "Üzeyir Hacıbəyov" (1960-cı il), Ömər Eldarovun "Natavan" (1960-cıil) kimi dərin ifadəli, möhtəşəm sənət əsərləri yaradılmışdı.

Bakının mərkəzinin yenidən qurulması həmin illərdə Azərbaycan memarlarının fəaliyyətinin mühüm sahəsi idi. Müharibədən sonra, 1950-60-cı illər bir sıra iri obyektlərin inşasının başa çatdırılması ilə əlamətdardır. Hökumət evinin, V.İ.Lenin (indiki T.Bəhramov) adına Respublika stadionunun inşası başa çatmışdır. 1960-cı illərdə Akademiya, Universitet şəhərcikləri, Bakı Hava Limanı, Mərkəzi Univermaq və Dövlət Sirkinin binaları tikilib istifadəyə verilmişdi.

Beləliklə 1945-1969-cu illər Azərbaycan mədəniyyətinin inkişafında mürəkkəb və ziddiyyətli olsa da, çox mühüm tərəqqi dövrü hesab edilə bilər.